RƏSMİ DÖVLƏT QƏZETİ



# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 92 (8685) BAZAR, 2 may 2021-ci il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az

*Azərbaycanın özü qədər əbədi*



## Bugünümüzün və sabahımızın güclü təməlini yaradan Lider

**Azərbaycanın yeni tarixinin bütöv bir dövrü XX əsrin nəhəng dövlət xadimi Heydər Əliyevin adı ilə bağlıdır. Onun adı xalqın simvoluna, əməlləri isə şəxsi hünər rəmzinə çevrilmişdir.**

Bu dövr iki hissədən ibarətdir. Birinci hissə 1969-1988-ci illəri, ikinci hissə isə sonrakı 15 ili əhatə edir. Düzdür, müəyyən dövr ərzində Heydər Əliyev Azərbaycanın dövlət başçısı olmayıb, Bakıda yaşamayıb. Ancaq Heydər Əliyev hansı vəzifədə və harada olmasından asılı olmayaraq, Azərbaycanın hər bir şüurlu vətəndaşı onun dövlətçilik məharətinə, xalqına, vətəninə olan sevgisinə inanıb və güvənib.

Heydər Əliyev ilk dəfə 1969-cu ilin yayında Azərbaycana rəhbər seçilməsi ərəfəsində respublikadakı vəziyyəti yaxşı xatırlayıram...

Leninqrad şəhərində dissertasiya müdafiə etdikdən və Krasnodar vilayətində bir müddət işlədikdən sonra Bakıya yenicə gəlmişdim. Və özümdən asılı olmayaraq o vilayətlə respublikamızı daima müqayisə edirdim. Əfsuslar olsun ki, bu müqayisə heç də bizim xeyrimizə olmurdu. Cəmiyyətdə bədbinlik, ətalət, inamsızlıq əhvali-ruhiyyəsi hökm sürürdü. Çoxları düşünürdü ki, həyatın mövcud axarına təsir etmək, onu dəyişdirmək mümkün deyil. Sosial-iqtisadi göstəricilərin əksəriyyətinə görə respublikamız ölkədə axırıncı yerlərdən birini tuturdu. Kənd təsərrüfatı və sənaye məhsullarının, demək olar, bütün növlərinin istehsalı ilbəil azalırdı.

Ermənistanın respublikamıza qarşı ilk açıq ərazi iddiaları da həmin dövrə aiddir. Bu iddiaların hansı faciəli nəticələrə gətirə biləcəyini əhalinin böyük əksəriyyəti dərk etmirdi. Lakin bu iddialar şəraiti xeyli kəskinləşdirir, xalqın respublika rəhbərlərinə inamsızlığını daha da artırırdı.

Heydər Əliyev ictimai-siyasi həyatda yenicə yaranmaq istəyən meyilləri məharətlə sezir və respublikanı qarşıdakı sınaqlara vaxtında hazırlamaq üçün hər şeyi edirdi. Yüksək vəzifəyə seçildiyi ilk günlərdə Azərbaycana ərazi iddiaları ilə əlaqədar olaraq Ermənistan rəhbəri ilə görüşdü.

*Ardı 3-cü səh.*

# Qafqazın ən böyük və modern sənaye məhəlləsi

### Hacıqabulda fəaliyyətə başlayan yeni müəssisələr tezliklə məhsullarını "Made in Azerbaijan" brendi ilə dünya bazarına çıxaracaqlar

◆ **Müəllifi İlham Əliyevdir**

**Hacıqabul rayonu Atbulaq kəndi. Pirsaat çayının sahilində qərar tutan bu kənd Bakıdan 113 kilometr aralıda yerləşir. Ərazisi düzənlikdir və qeyri-neft sənayesinin inkişafı baxımından əlverişli məkan sayılır. Aprelin 20-də kəndin tarixində yeni dövr başladı desək, yanılmarıq. Ərazisinə görə Azərbaycanın, hətta Qafqazın ən böyük sənaye müəssisəsi olan Hacıqabul Sənaye Məhəlləsi fəaliyyətə başladı.**




Prezident İlham Əliyevin iştirakı ilə açılış mərasimi keçirilən məhəllədə qeyri-neft sənaye məhsulları - mineral gübrələr, su qabları, meyvə və tərəvəz qablaşdırılması üçün taraların istehsalı, tikinti avadanlıqları istehsal edən zavod və maşınqayırma zavodu istehsala start verib. Növbəti mərhələdə izolyasiya materialları, balıq yemi, qablaşdırma məhsulları və digər istehsalat sahələri işə başlayacaq.

Sənaye məhəlləsində müəssisələr üçün yaradılan şərait və istehsal prosesi ilə tanış olmaq üçün Hacıqabula yollandıq.

### Əlverişli məkan, 4 istehsalat sahəsi, fasiləsiz enerji təminatı

Sahəsinə və investisiya dəyərinə görə Azərbaycanda və Qafqazda ən böyük iqtisadi fəaliyyət subyekti olan Hacıqabul Sənaye Məhəlləsindəyik. Prezidentin 2017-ci il 25 iyul tarixli sərəncamına uyğun olaraq yaradılan məhəllənin ərazisi əvvəlcə 20 hektar idisə, 2020-ci ildə əlavə olaraq 40 hektar sahə ayrılmaqla ərazisi genişləndirilərək 60 hektara çatdırılıb. Ümumi investisiya həcmi 45,44 milyon manat təşkil edir. Burada qeydiyyatdan keçmiş 10 müəssisə rezident üzrə gələcəkdə yaranacaq iş yerinin sayı 350-dən çox olacaq. Hələlik isə 10 rezidentdən 5-i istehsal prosesinə başlayıb.



Sənaye məhəlləsində dövlət vəsaiti hesabına lazımi infrastruktur yaradılıb. 4 istehsalat sahəsi, ikimərtəbəli inzibati, eləcə də texniki və köməkçi binalar tikilib. Sahibkarların ixtiyarına verilən istehsalat sahələri də ikimərtəbəlidir. Birinci mərtəbədə istehsal sahəsi, ikinci mərtəbədə isə ofis, işçilərin paltar soyunub-geyinmə otagı mövcuddur.

İnzibati binada toplantı və təlimlərin keçirilməsi üçün iclas otağı, məhəllənin iştirakçılarına müxtəlif xidmətlər göstərəcək müasir ofis sahələri, sərgi-satış mərkəzi, tibb məntəqəsi, poçt, yeməkxana və idarəedici təşkilatın istifadəsi üçün nəzərdə tutulan sahələr var. Sənaye məhəlləsində sahibkarlara mühasibatlıq, hüquq, bank və sığorta, poçt və internet, logistika, tibbi xidmətlər göstərilir. Burada həmçinin Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin sahibkarlara dəstək verən "KOB Dostu"nun da ofisi mövcuddur.

İstehsalat korpusları elektrik və istilik enerjisi, qaz, su, kanalizasiya, rabitə, yanğından mühafizə sistemləri ilə təchiz edilib. Həmçinin ərazidə məişət və texniki suların təmizləyici qurğulardan keçib yenidən istifadə edilməsi üçün müasir qurğular, elektrik yarımstansiyası, infrastruktur sistemlərinin fasiləsiz enerji ilə təmini üçün generator mövcuddur.

*Ardı 4-cü səh.*

## Birinci vitse-prezident Mehriban Əliyeva Azərbaycanın xristian icmasını təbrik edib



Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva rəsmi "Instagram" səhifəsində respublikamızın xristian icmasını Pasxa bayramı münasibətilə təbrik edib.

AZƏRTAC xəbər verir ki, təbrikdə deyilir: "Azərbaycanın bütün xristian icmasını Pasxa bayramı münasibətilə səmimi-qəlbdən təbrik edirəm! Sizin hər birinizə möhkəm cansağlığı, tükənməz sevgi, sevinc dolu günlər və xoşbəxt gələcək arzulayıram!

Qoy bu mübarək gün hər kəsin qəlbini saf niyyətlər və xoş məramlarla doldursun, hər bir evə xeyir, rahatlıq və rifah, hər bir ölkəyə sülh və əmin-amanlıq gətirsin!"

◆ **Qarabağ dirçəliş yolundadır**

## Böyük Qələbə Qarabağın milli-mənəvi irsini də azad etdi



### İşğaldan qurtulan dəyərlərimiz bu torpaqların qədim Azərbaycan yurdu olduğunu yenidən dünyaya çatdıracaq

*30 ilə yaxın Azərbaycan torpaqlarını işğal altında saxlayan Ermənistan bu torpaqları yalnız talan etməyib. İşğalçılar tarixi ərazilərimizi erməniləşdirməyə cəhd edərək xalqımızın milli-mənəvi dəyərlərinə qarşı əsl soyqırımı həyata keçiriblər, tarixi-dini abidələrimizə qarşı vandallıq törədiblər. Erməniləşdirə bilmədiklərini isə dağıdıblar, ya da təhqir ediblər.*

### Bütün məscidlər yenidən qurulacaq



Prezident İlham Əliyev bir neçə gün əvvəl işğaldan azad olunmuş rayonlarımıza səfəri zamanı bir daha diqqəti ermənilər tərəfindən məscidlərimizin dağıdılmasına yönəltdi. "Azad edilmiş bütün torpaqlarda bizim tarixi, mədəni, dini irsimiz ermənilər tərəfindən dağıdılıb, təhqir edilib, sökülüb" deyən İlham Əliyev bunun bütün müsəlman aləminə, islam dininə qarşı cinayət olduğunu bildirib.

Bəli, dağıdılması bir tərəfə, ermənilərin məscidlərdən tövlə kimi istifadə etmələri, orada donuz saxlamaları onların hansı xislətin, hansı çirkin keyfiyyətlərin daşıyıcısı olduqlarını göstərir. Dövlət başçısı ermənilərin cinayətlərinin dünyaya çatdırılması işində hər kəsi fəal olmağa çağırdı.

*Ardı 4-cü səh.*

## Keçmiş hərbi xunta Paşinyana qarşı qiyama hazırlaşır

Növbədənkənar parlament seçkiləri fonunda Ermənistanda keçmiş hərbi xuntanın hakimiyyətə qarşı daha da aktivləşdiyi müşahidə edilir. Sarkisyan-Koçaryan koalisiyası indi əsas diqqəti Nikol Paşinyan iqtidarına qarşı təhqir və iftira kampaniyası üzərində cəmləşdirib.

Sabiq prezidentlər Serj Sarkisyan və Robert Koçaryanın son açıqlamaları da bunu təsdiq edir. S.Sarkisyan "ArmNews" telekanalının efirində rejissor və "Hakimiyyət" filminin ssenari müəllifi Mqer Mkrtçyana müsahibəsində Paşinyan iqtidarını açıq şəkildə təhqir edib: "Ermənistanın indiki hakimiyyəti çoban itləri deyil, çaqqaldırlar".

Nikol Paşinyanın komandasını çaqqallara bənzədən Sarkisyan sözügedən müsahibəsində 2018-ci ilin aprel hadisələrindən danışıb, eyni zamanda istefası və digər mövzular barədə sualları cavablandırıb. Baş verənlərə görə Paşinyan və komandasını ittiham edib.

Ermənistanın digər eks-prezidenti Robert Koçaryan da Paşinyanın səriştəsiz olduğunu bildirib və qeyd edib ki, bu halda heç bir ağlı başında olan şəxs Ermənistana yatırım etməyəcək: "Bank sistemini dağıtdılar, biznesmenləri təqib və təhdid etməyə başladılar. Bir təklif kifayətdir ki, investisiyaların üzərindən xətt çəkilsin. Baş nazir deyəndə ki, hər biznesmenə Milli Təhlükəsizlik Xidmətinin bir əməkdaşı nəzarət edəcək, bu, investorun psixologiyasını sıfır səviyyəsində anlamaq deməkdir. Bu cür axmaqlığı düşünmək belə çətindir".

Göründüyü kimi, seçkiöncəsi separatçıların dəstəyini alan koalisiyanın sərt formada müqavimət göstərməsi gözlənilir və bu da Ermənistanda qarşıdurmanın dərinləşməsi deməkdir. Əsas niyyət hakimiyyətə qarşı müqavimət və itaətsizlik təşkil etmək, bununla xaotik durumun yaradılmasına nail olub, qiyam təşkil etməklə güc yolu ilə hakimiyyəti qəsb etməkdir. Məhz belə vəziyyət siyasi gərginliyin daha da yüksələcəyini göstərir.

Paşinyan isə hərbi xunta təmsilçilərinin yenidən həbsə atılması üçün hüquqi müstəvidə onlara qarşı cinayət təqibini davam etdirir. Bunun ardınca hakimiyyət təhlükəli hesab etdiyi digər müxalif fiqurları da inzibati yolla sıradan çıxarmağa hazırlaşır.

*Ardı 5-ci səh.*

# İqtisadi Şuranın növbəti iclasları keçirilib

Azərbaycan Respublikası İqtisadi Şurasının növbəti iclasları keçirilib.

Nazirlər Kabinetinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, iclaslarda 2021-2025-ci illərdə sosial-iqtisadi inkişaf strategiyasının əsas makroiqtisadi çağırışları, ortamüddətli makrofiskal çərçivə və proqnozlar və digər cari məsələlər müzakirə olunub.





# Azad Arif oğlu Rəhimov



Azərbaycan ictimaiyyətinə ağır itki üz vermişdir. Azərbaycan Respublikasının gənclər və idman naziri Azad Arif oğlu Rəhimov 2021-ci il aprelin 30-da ömrünün 57-ci ilində vəfat etmişdir.

Azad Rəhimov 1964-cü il oktyabrın 8-də Bakı şəhərində anadan olmuşdur. O, Bakı şəhəri 134 nömrəli orta məktəbi bitirmiş, 1981-1986-cı illərdə Azərbaycan Pedaqoji Xarici Dillər İnstitutunda ingilis dili fakültəsində ali təhsil almışdır.

Azad Rəhimov 1986-1987-ci illərdə hərbi xidmət keçdikdən sonra 1987-1990-cı illərdə rayon komsomol təşkilatında katib və birinci katib, 1990-1993-cü illərdə Azərbaycan Gənclər Təşkilatları Komitəsinin sədri vəzifələrində işləmiş, 1993-cü ildən dövlət idarəçiliyinə gələnədək sahibkarlıq fəaliyyəti göstərmişdir.

2006-cı ildə Azərbaycan Respublikasının gənclər və idman naziri təyin olunan Azad Rəhimov ömrünün sonunadək bu vəzifəni icra etmiş, həmin illərdə eyni zamanda Azərbaycan Milli Olimpiya Komitəsinin vitse-prezidenti olmuşdur.

Azad Rəhimov gənclər və idman naziri kimi çalışdığı müddət ərzində daim işgüzarlıq və təşkilatçılıq qabiliyyəti nümayiş etdirmişdir. Dərin məsuliyyət hissi və dövlətçilik prinsiplərinə sadiqliyi ona həmkarları arasında böyük hörmət qazandırmışdır. Azərbaycanda dövlət siyasətinin prioritet istiqamətlərindən biri olan idmanın qarşısında dayanan vəzifələrin müvəffəqiyyətlə gerçəkləşdirilməsi üçün qüvvə və bacarığını əsirgəməyən Azad Rəhimov respublikada idmanın maddi-texniki bazasının daha da möhkəmləndirilməsi və kütləviliyinin artırılması, eləcə də idmançılarımızın ən mötəbər yarışlarda iştirakının yüksək səviyyədə təmin edilməsi və ölkəmizin idman şərəfinin beynəlxalq miqyasda layiqincə qorunması işinə töhfələr vermişdir. Azərbaycan gəncliyinin inkişafına dair dövlət proqramları və strategiyalarının hazırlanmasında, habelə gənclərin yaradıcılıq potensialının üzə çıxarılması ilə bağlı tədbirlərin uğurla həyata keçirilməsində onun təqdirəlayiq xidmətləri olmuşdur.

Azad Rəhimovun səmərəli fəaliyyəti yüksək qiymətləndirilmiş və o, müstəqil Azərbaycan Respublikasının ali dövlət mükafatlarından olan "Şöhrət" və 1-ci dərəcəli "Vətənə xidmətə görə" ordenləri ilə təltif edilmişdir.

Tanınmış ictimai-siyasi xadim, bacarıqlı təşkilatçı və səmimi insan Azad Arif oğlu Rəhimovun xatirəsi onu tanıyanların qəlbində daim yaşayacaqdır.

**Allah rəhmət eləsin!**

**İlham ƏLİYEV, Mehriban ƏLİYEVA, Əli ƏSƏDOV, Sahibə QAFAROVA, Samir NURİYEV, Adil ƏLİYEV, Eldar ƏZİZOV, Yusuf MƏMMƏDƏLİYEV, Çingiz HÜSEYNZADƏ, Ağacan ABIYEV, Fuad HACIYEV, Fərid CƏFƏROV, İlqar RƏHİMOV**

# Rusiyalı qonaqlar Ağdamda İmarət qəbiristanlığında erməni barbarlığına şahid olublar





Rusiyalı deputatlar, ekspertlər və jurnalistlərin bir qrupu mayın 1-də Ermənistan işğalından azad olunmuş Ağdam şəhərinə səfər ediblər.

Rusiyalı qonaqlar Ağdam şəhərindəki İmarət qəbiristanlığında erməni barbarlığına şahid olublar. Bildirilib ki, burada Qarabağ xanlığının əsasını qoymuş Pənahəli xanın və xanlıqda müxtəlif illərdə hakimiyyətdə olmuş hökmdarlar - İbrahimxəlil xanın və onun oğlu Mehdiqulu xanın qəbirüstü türbələri, həmçinin Mehdiqulu xanın qızı Xurşidbanu Natəvanın məzarları olub. Qarabağ xanlarının nəslindən olmuş digər görkəmli şəxslər də bu qəbiristanlıqda dəfn edilib. Lakin Ağdam şəhəri işğal olunduqdan sonra Pənahəli xanın buradakı sarayı və qəbiristanlıq erməni vandalizminə məruz qalıb. Erməni vandalları İbrahimxəlil xanın türbəsini və Qarabağın sonuncu hakimi Mehdiqulu xan Cavanşirin qızı Xurşidbanu Natəvanın qəbirüstü abidəsini də dağıdıblar.

İşğal edilən ərazilərdəki məscidlər, məzarlıqlar kimi Pənahəli xanın imarəti də ermənilər tərəfindən təhqir edilib. Tövlə kimi istifadə edilən xan sarayında inək və donuz saxlanılıb.

**AZƏRTAC**

# Ermənilər Ağdam Cümə məscidində mal-qara və donuz saxlayaraq müsəlman aləmini təhqir ediblər

Mayın 1-də rusiyalı deputatlar, ekspertlər və jurnalistlər işğaldan azad edilmiş Ağdam şəhərinə səfər zamanı Cümə məscidində ermənilərin törətdikləri vəhşiliyə şəxsən şahid olublar.



AZƏRTAC xəbər verir ki, rusiyalı qonaqlar əvvəlcə Ağdam şəhərinin mərkəzi hissəsinə, o cümlədən viran qoyulmuş infrastruktur obyektlərinə, Dram Teatrının qalıqlarına baxıb, ermənilərin müharibə cinayətləri, mədəni, tarixi, dini abidələri məhv etmələri barədə ətraflı məlumatlandırılıblar.

Bildirilib ki, Ermənistanın işğalına qədər Ağdam nəinki Qarabağ bölgəsinin, eləcə də respublikanın ən böyük, inkişaf etmiş şəhərlərindən idi. İşğala qədər Ağdam rayonunda 153 min, Ağdam şəhərində isə 42 mindən çox sakin yaşayırdı. Rayonda 17 sənaye müəssisəsi fəaliyyət göstərirdi. Ermənilər işğal etdikləri Ağdam şəhərində və rayonun kəndlərində yaşayış evlərini, ictimai binaları, məktəbləri, uşaq bağçalarını, xəstəxanaları, istehsal müəssisələrini talan edib, dağıdıb və yandırıblar.

Sonra qonaqlar Ağdamda Cümə məscidinə gəliblər. Məlumat verilib ki, Ağdam Cümə məscidi 1868-1870-ci illərdə memar Kərbəlayi Səfixan Qarabaği tərəfindən tikilib. Bu məscid "Qarabağ məscid memarlığı" məktəbinə aiddir. Ermənilər tərəfindən dağıntılara məruz qalan Ağdam məscidinin minarələri daxildən söküləb, tavanı bir neçə yerdən uçurulub, dizayn və yazıları bilərəkdən yararsız, tanınmaz vəziyyətə salınıb.

Qeyd olunub ki, Azərbaycanda bir çox azsaylı xalqlar mehriban qonşuluq şəraitində, dinc-yanaşı yaşayırlar, ölkəmizdə müxtəlif dini konfessiyalar fəaliyyət göstərir. Kilsə və sinaqoqlar dövlət səviyyəsində təmir və bərpa olunur, dini etiqad azadlığına həssaslıqla yanaşılır. Ermənistan isə bunun əksinə olaraq, azərbaycanlıların dini inanc yerlərində, Qarabağdakı məscidlərimizdə, Ağdam Cümə məscidində mal-qara və donuz saxlayaraq müsəlman aləmini, İslam dinini təhqir edib.

# İqor KOROTÇENKO: "Dəmir yumruq" əməliyyatı XXI əsrin müasir yüksək texnoloji müharibə nümunəsidir

Belə təsəvvür yaranır ki, burada sanki atom bombası partladılıb. Dağıdılmış Ağdam atom bombası ilə dağıdılmış Xirosima və Naqasakini xatırladır. Lakin ermənilər burada atom bombası partlatmayıblar, onların atom bombası yox idi. Ermənilər burada Azərbaycan xalqına nifrət bombası partladıblar.

AZƏRTAC xəbər verir ki, bu sözləri mayın 1-də Ağdamda səfərdə olan Rusiyada çıxan "Nasionalnaya oborona" jurnalının baş redaktoru İqor Korotçenko jurnalistlərə müsahibəsində söyləyib.

## "Ermənistanın hərbi-siyasi rəhbərləri vandalizm aktlarına görə beynəlxalq tribunalda cavab verməlidirlər"

İ.Korotçenko qeyd edib ki, törədilmiş dağıntıların miqyası ağlasığmazdır: "Dünyada bəlkə ikinci elə yer yoxdur ki, vandalizm, nifrət və düşmənçilik bu qədər geniş miqyas almış olsun. Bu, hərbi cinayətdir, Ermənistanın hərbi və siyasi rəhbərləri buna görə beynəlxalq tribunalda cavab verməlidirlər. Belə əməlləri bağışlamaq mümkün deyil. Bu, insanlıq əleyhinə cinayətdir. Bir daha təkrar edirəm, bu, vəhşicəsinə törədilmiş hərbi cinayətdir. Ermənistanda Birinci və İkinci Qarabağ müharibələrini törətmiş siyasətçilər, 1 milyondan çox azərbaycanlını doğma yurdlarından qovmuş erməni hərbçiləri və yaraqlıları öz hərbi cinayətlərinə görə cavab verməlidirlər".

## "Bərpa edilmiş Qarabağ öz ölkəsinin ərazi bütövlüyü uğrunda həlak olanlara abidə olacaq"

Baş redaktor daha sonra deyib: "Əlbəttə, biz başa düşürük ki, bu dəhşətli yaraların sağalması, Azərbaycan şəhərlərinin, digər yaşayış məntəqələrinin bərpa edilməsi üçün çox böyük zaman, onilliklər lazım olacaq. Lakin Azərbaycanın siyasi əzmkarlığı var. Biz tam əminik ki, işğaldan azad edilmiş ərazilər bir müddətdən sonra yenidən Azərbaycanın incilərinə çevriləcək. Azərbaycan xalqı çox əməksevər, səbirli və inadkar xalqdır. O, dağıntıları bərpa edəcək və bu, öz ölkəsinin ərazi bütövlüyünü qorumaq üçün canlarından keçmiş azərbaycanlılara ən yaxşı abidə olacaq. Bərpa edilmiş şəhərlər, bərpa edilmiş Qarabağ öz ölkəsinin azadlığı, müstəqilliyi və ərazi bütövlüyü uğrunda döyüşlərdə həlak olanlara abidə olacaq".

## "Dəmir yumruq" əməliyyatı müasir hərb sənətinin zəfər nümunəsidir

İ.Korotçenko sözünə davam edərək deyib ki, burada aparılmış "Dəmir yumruq" əməliyyatı hərb sənəti baxımından XXI əsrin müasir yüksək texnoloji müharibə nümunəsidir. Azərbaycan Ordusu çox yaxşı hazırlıq keçmiş düşmənlə döyüşürdü. Bu düşmən 30 ilə yaxın müddətdə bir neçə istehkam xətti qurmuşdu. Yerevanda hesab edirdilər ki, bu istehkam xətləri Azərbaycan Silahlı Qüvvələri üçün keçilməz olacaq. Lakin biz yeni texnoloji müharibənin, XXI əsr müharibəsinin yeni nümunələrini gördük. Azərbaycan Ordusu, XXI əsrin ordusu bu görkəmli Zəfəri qazanmağa nail oldu.

İ.Korotçenko vurğulayıb ki, bu gün "Dəmir yumruq" əməliyyatı dünyanın ən müxtəlif dövlətlərinin - Amerika Birləşmiş Ştatlarının, Böyük Britaniyanın, Fransanın aparıcı hərbi akademiyalarında, ərəb dünyasında öyrənilir: "Bu əməliyyatı Rusiyada da tədqiq edirlər. Ona görə ki, bu, müasir hərb sənətinin zəfər nümunəsidir. Bu gün belə əməliyyatların sayı çox olmasa da, Azərbaycan müasir silah növlərindən geniş istifadə etməklə nəyə qadir olduğunu göstərdi. Mən hesab edirəm ki, bu Qələbə, ilk növbədə, Azərbaycan Silahlı Qüvvələrinin Ali Baş Komandanı, Prezident İlham Əliyevin sayəsində qazanılıb. Bu hərbi qələbə sayəsində Azərbaycan İkinci Qarabağ müharibəsini keçən il dünyada baş vermiş ən mühüm hadisələrin siyahısına daxil edib. Azərbaycanın qələbəsi 2020-ci ilin başlıca hərbi-siyasi hadisəsidir. Bu faktla heç kəs, hətta erməni təbliğatçıları da mübahisə edə bilməz, ona görə ki, bir daha təkrar edirəm, 44 günlük müharibə dövründə Ermənistan ordusunda 10 min fərari olub. Bilirsinizmi, bu da hərb tarixində misli olmayan nümunədir. Azərbaycan öz iradəsi, əzmkarlığı, iqtisadiyyat və siyasət sahəsində malik olduğu üstünlüklər sayəsində qalib gəlib. Şübhəsiz, bu, həm də dövlətlərin liderlərinin mübarizəsi idi. Miskin görkəmli, kəkələyə-kəkələyə danışan, özünü itirmiş, kapitulyasiya aktını imzalayan Paşinyanın fonunda Prezident Əliyev müasir dünyanın liderlərindəndir".

"Nasionalnaya oborona" jurnalının baş redaktoru bildirib ki, bu gün dünya paytaxtlarının çoxu Azərbaycana etimad göstərir, hörmət edir, onu dostluğa layiq ölkələrdən biri sayır: "Ona görə ki, bu dövlət çox mühüm siyasi qərarlar qəbul edilməsi məsələlərində tamamilə suverendir. Bu gün belə ölkələrin sayı çox deyil. Azərbaycan məhz öz iqtisadi qüdrətinə və ordusunun gücünə güvənərək öz suverenliyini təmin edən dövlətlərdəndir".

# Ermənilər Ağdamın Şəhidlər xiyabanındakı qəbirləri qarət məqsədilə qazaraq dağıdıblar



Mayın 1-də rusiyalı deputatlar, ekspertlər və jurnalistlər Ermənistanın işğalından azad olunmuş Ağdam şəhərinə səfər zamanı I Şəhidlər xiyabanını ziyarət ediblər.

AZƏRTAC xəbər verir ki, burada I Qarabağ müharibəsində şəhid olan qəhrəman Vətən övladları, o cümlədən Xocalı soyqırımında öldürülən şəhər sakinlərinin bir hissəsi dəfn edilib.

Azərbaycanın Milli Qəhrəmanı Allahverdi Bağırovun qəbri də buradadır.

Qonaqlara məlumat verilib ki, ermənilər xislətlərinə uyğun olaraq, Şəhidlər xiyabanındakı qəbirlərin əksəriyyətini qarət məqsədilə qazaraq dağıdıblar.

# Düşmən Pənahəli xanın tikdirdiyi Şahbulaq qalasını özününküləşdirməyə çalışsa da, buna nail ola bilməyib

Rusiyalı deputatlar, ekspertlər və jurnalistlər işğaldan azad olunmuş Ağdam rayonuna səfər çərçivəsində Şahbulaq qalasını ziyarət ediblər.



AZƏRTAC xəbər verir ki, qonaqlara qala barədə ətraflı məlumat verilib. Bildirilib ki, Şahbulaq kəndi yaxınlığında yerləşən bu qala 1751-1752-ci illərdə Qarabağ xanlığının banisi Pənahəli xan tərəfindən inşa edilib. Elmi ədəbiyyatda "Şahbulaq qəsri" adı ilə tanınan abidə, əslində, iri qəsr kompleksinin iç qalası olub. Kompleks yaşayış evlərindən, bazar, hamam və məsciddən ibarət idi. Kompleksin ətrafı mühafizə divarları, nəzarətçi qülləri ilə əhatələnib. Şahbulaq saray kompleksinin şimal-qərbində, bulağın yaxınlığında məscid də inşa edilib. Qəsr yaxınlıqdan axan gur sulu bulağın adı ilə adlandırılıb.

Pənahəli xan Şuşa qalasını inşa etdirənədək Şahbulaq qalası Qarabağ xanlığının inzibati mərkəzi olub. Şahbulaq tikililəri Qarabağ xanlığının, xüsusilə də onun paytaxtı olmuş Şuşa şəhərinin memarlığına təsir göstərib.

Hazırda Şahbulaq qəsr kompleksindən bulaq yanındakı təpə üzərində ucalan qala və məscid binası qalıb. Ermənilər 1993-cü ildə Ağdamı işğal etdikdən sonra əksər abidələrimiz kimi, Şahbulaq qalasını da erməniləşdirməyə çalışıblar. Lakin buna nail ola bilməyiblər.

1923 **Azərbaycanın özü qədər əbədi** 2021

# Bugünümüzün və sabahımızın güclü təməlini yaradan Lider



*Əvvəli 1-ci səh.*

Onların danışıqları barədə heç bir məlumatımız yoxdur, lakin erməni tərəfi anlayırdı ki, Heydər Əliyev dövründə onların bütün səyləri əbəsdir. Odur ki, sonrakı 19 il ərzində ermənilər tərəfindən belə cəhdlər göstərilmədi.

Heydər Əliyev geriliyin, inamsızlığın və sosial ətalətin aradan qaldırılmasına nail oldu. 1969-1982-ci illərdə iqtisadiyyatın bütün sahələrində köklü dəyişikliklər aparıldı. Kənd təsərrüfatı, yüngül və yeyinti sənayeləri və digər sahələr sürətlə inkişaf etdi, mühüm sosial dəyişikliklər həyata keçirildi, insanların güzəranı yaxşılaşdı. Sənayedə struktur dəyişiklikləri edildi, mövcud sahələr modernləşdirildi.

O vaxt sənaye məhsulunun əsas həcmi neft maşınqayırması və neft emalı zavodlarının payına düşürdü. Bu məhsulların keyfiyyəti də yüksək deyildi. Əhalinin rifah halı istehsalın məhdud bir sahəsində işlərin vəziyyətindən asılı edilmişdi. Problem çoxdan yaranmışdı, lakin sahənin müasirləşdirilməsi istiqamətində bir fəaliyyət yox idi.

Heydər Əliyevin rəhbərliyi ilə sənayenin inkişaf proqramı həyata keçirildi. Azərbaycanda elektrotexnika, cihazqayırma, elektronika, dəzgahqayırma kimi mütərəqqi, elmtutumlu sahələrə aid yüzlərlə iri birlik, müəssisə və zavodlar yaradıldı. Energetika, neft kimyası, tikinti sənayesi güclü təkan aldı. Neft maşınqayırması və neftayırma zavodları modernləşdirildi.

Elm, ədəbiyyat, mədəniyyət, incəsənət parlaq inkişaf yolu keçdi. Azərbaycan xalqının mədəni və tarixi irsi geniş təbliğ edildi. Azərbaycanın görkəmli xadimləri ölkədə və onun hüdudlarından kənarda böyük rəğbət qazandılar.

Respublikada yeni ali məktəblər və tədqiqat müəssisələri, onlarca kafedra və laboratoriyalar yaradıldı. Ali məktəblərə qəbul xeyli artırıldı. Moskvanın, Leninqradın, Kiyevin və ölkənin digər şəhərlərinin ali məktəbləri hər il Azərbaycandan əvvəlcə 500, sonralar isə 1000 nəfər gənci qəbul etməyə başladılar.

Sovet dövründə bir qayda olaraq azərbaycanlılar heç bir hərbi peşəyə yiyələnmirdilər, əsasən tikintidə, digər yardımçı sahələrdə xidmət edirdilər. Misal üçün, hərbi aviasiyada, pilot ixtisasında bir nəfər belə azərbaycanlı yox idi. Əlbəttə, belə halın yaranmasında Azərbaycana qarşı ittifaqda mövcud olan qeyri- səmimi münasibətin də təsiri var idi. Ancaq açıq deməliyik ki, özümüz də bu məsələyə heç bir maraq göstərmirdik, hərbi ixtisas üzrə milli kadrların olmasının əhəmiyyətini anlamırdıq.

Heydər Əliyev azərbaycanlıların hərbi məktəblərə, o cümlədən hərbi aviasiya məktəblərinə göndərilməsini, onların hərbi ixtisaslara yiyələnməsi məsələlərinə nail oldu. Gəncləri yüksək vətənpərvərlik ruhunda tərbiyə etmək, ölkəni gələcək sınaqlara hazırlamaq məqsədi ilə müttəfiq respublikaların içində ilk və yeganə hal idi ki, Azərbaycanda Naxçıvanski adına Hərbi Məktəb yaradıldı. Bu məsələ ittifaq mərkəzində qısqanclıqla qarşılansa da, Heydər Əliyevin səyləri nəticəsində öz müsbət həllini tapdı. Azərbaycan kosmonavt hazırlamaq vəzifəsini qarşıya qoydu. Bu məqsədlə ixtisaslaşdırılmış üçüş məktəblərinə onlarca gənc göndərildi.

1978-ci ildə Heydər Əliyevin bilavasitə rəhbərliyi altında Azərbaycan Konstitusiyası hazırlanırdı. Konstitusiya layihəsində ana dilimizə dövlət dili statusu verilməsi nəzərdə tutulurdu. İttifaq rəhbərlərinin bir çoxunda bu fikir ciddi narazılıq doğurdu. Hətta Ukraynanın ovaxtkı rəhbəri Sovet İKP MK Siyasi Bürosunun üzvü Heydər Əliyevə irad da tutmuşdu. Ancaq bu, Azərbaycanın gələcək müstəqilliyinə yönəldilmiş ən sanballı addım idi və Heydər Əliyev bu müddəanın Konstitusiyada təsbit edilməsinə nail oldu.

1982-ci ildə Heydər Əliyev SSRİ Nazirlər Soveti sədrinin I müavini vəzifəsinə irəli çəkildi. Siyasi Büroya üzv seçildi - Sovet İttifaqı Kommunist Partiyasının ən yüksək pilləsinə yüksəldi. Bu vəzifədə Heydər Əliyevin fəaliyyəti əvvəlki dövrlə müqayisə olunmayan bir miqyas almışdı. Ancaq bu yüksək və məsuliyyətli vəzifədə o, heç vaxt Azərbaycanı unutmur, daim onun sevincinə, kədərinə şərik olur, respublikanın iqtisadi və sosial inkişafı barəsində düşünür, bunun üçün lazımi tədbirlər görürdü.

Heydər Əliyevin təşəbbüsü ilə Azərbaycanda beynəlxalq miqyaslı kurort və turizm sahəsinin inkişafına dair xüsusi proqram hazırlandı. Proqramda Abşeron yarımadasında və bütün Xəzər boyu müasir istirahət zonasının yaradılması nəzərdə tutulurdu. Gəncədə nəhəng avtomobil zavodunun tikintisi planlaşdırılırdı, bir neçə müasir hərbi sənaye kompleksi müəssisəsi, elektron hesablama maşınları zavodu və digər obyektlərin inşası nəzərdə tutulurdu. Əfsuslar olsun ki, respublika rəhbərliyinin bacarıqsızlığı, siyasi bəsirətsizliyi nəticəsində bu və başqa obyektlərin inşası başa çatdırılmadı.

Sovet İttifaqının yeni rəhbərliyinə gələn M.Qorbaçov və tərəfdarları Heydər Əliyevin xalq arasında artan nüfuzunu qısqanclıqla qəbul edirdilər. Heydər Əliyevin fəaliyyətinin və şəxsiyyətinin ittifaq miqyasında və beynəlxalq ictimaiyyət qarşısında təhrif olunması prosesinə başlanıldı. 1987-ci ildə Heydər Əliyev Moskvada tutduğu vəzifədən istefa verməli oldu.

Heydər Əliyevin respublikamızda hakimiyyətə ikinci gəlişi Azərbaycanın müasir tarixində ən faciəli dövrdə - 1993-cü ildə baş vermişdi. Ölkədə vəziyyət günbəgün pisləşir, hakimiyyət tam iflic vəziyyətə düşmüşdü. Partiyalar, ictimai-siyasi hərəkatlar, nəhayət, bəzi imkanlı adamlar silahlı dəstələr və silahlı birləşmələr yaratmışdılar. Kriminal düşüncəli adamlar ağsaqqallıq etmək, dövlət rəhbəri olmaq iddiasına düşür və hətta buna nail olurdular.

Azərbaycan müharibəni açıq aşkar uduzurdu. Erməni silahlı qüvvələri tərəfindən Şuşa şəhərinin ələ keçirilməsi hamını çaşqın vəziyyətə saldı. Cəmiyyətdə müdafiəsizlik və yaşayışın mümkünsüzlüyü ovqatı kütləvi xarakter almışdı. Prezident dönə-dönə Heydər Əliyevə müraciət edərək Bakıya gəlməsini xahiş edirdi.

1993-cü il iyunun 15-də Heydər Əliyev Azərbaycan Ali Sovetinin sədri seçildi, bir neçə gündən sonra isə Prezident Bakıdan qaçdığına görə Milli Məclisin qərarına uyğun olaraq, hakimiyyəti bütünlüklə öz öhdəsinə götürdü. Azərbaycan tarixində Heydər Əliyev zəmanəsinin ən dinamik, gərgin və səmərəli dövrü başlandı. Heydər Əliyevin nəhəng səyləri nəticəsində artıq başlanmış Vətəndaş müharibəsinin alovları söndürüldü. Lənkəranda və Gəncədə tabelikdən çıxmış silahlı birləşmələr tərksilah edildi. Döyüş qabiliyyətinə malik əsl ordu yaradıldı və onun döyüş qüdrəti sayəsində atəşkəs sazişinin bağlanması mümkün oldu.

Xəzər dənizinin neft və qaz ehtiyatlarının işlənməsi, yeni tranzit xətlərin çəkilməsi, qədim İpək yolunun bərpası, digər transkontinental layihələrin reallaşdırılması nəticəsində Azərbaycana beynəlxalq siyasi və maliyyə marağı yarandı. Respublikamız dünyanın ən dinamik inkişaf edən ölkələrindən birinə çevrildi.

Buna qədər isə Naxçıvanda Heydər Əliyevin əli ilə Yeni Azərbaycan Partiyasının proqram sənədləri yaradılmışdı. İntellektual elitanın içərisindən çıxmış insanların təşəbbüsü əsasında formalaşan partiya respublikanın ən nüfuzlu siyasi təşkilatına çevrildi.

Heydər Əliyev iki dəfə respublikanın rəhbəri olduğu 30 ildən artıq bir dövr Azərbaycanın çoxəsrlik tarixində kiçik bir müddətdir. Lakin bu dövr dövlətçiliyimizin və xalqımızın milli süurunun formalaşmasında tarixi bir mərhələdir.

Heydər Əliyevin hakimiyyətə birinci gəlişi xalqın həyatında dönüş nöqtəsinə, çiçəklənmə, cəmiyyətdə yeni dünyabaxışının yaranması, insanların öz qüvvə və imkanlarını dərk etməsi dövrünə çevrilmişdir. Biz naqislik kompleksi hissinə yaxın olan bir vəziyyətdən xilas olduq, özümüzü daha inamlı hiss etməyə başladıq, gözümüzdə dəyərlərimiz yüksəldi.

1993-cü ildə Heydər Əliyevin ölkə rəhbərliyinə qayıdışı yenicə əldə edilmiş müstəqilliyimizi, dağılmaqda olan dövlətçiliyimizi, hər kəsin və bütövlükdə millətin şərəf və ləyaqətini qorudu. Bu dövrdə demokratik inkişafın əsasları yaradılmaqla, uğurlu iqtisadi siyasət müəyyən edilib, həyata keçirildi.

2003-cü ildə İlham Əliyev Azərbaycan Prezidenti seçildikdən sonra ölkənin inkişafında yeni mərhələ başlandı. İdarəçilikdə yeni ideya və yanaşmalar tətbiq olundu. İqtisadiyyatın sürətli inkişafı, ardıcıl, yüksək professionallıqla aparılan səmərəli xarici siyasət ölkənin maliyyə imkanlarının artmasına, bir çox sosial problemlərin həllinə, ordumuzun müasir hərbi silah-sursatla təmin edilməsinə, ölkəmizin nüfuzunun beynəlxalq aləmdə yüksəlməsinə gətirib çıxardı. Biz yaxşı dərk edirik ki, bu nailiyyətlər Ulu Öndər Heydər Əliyevin yaratdığı özül üzərində ucalır.

Sonda Ermənistanın 1988-ci ildəki rəhbəri Dəmirciyanın bir çıxışını yada salmaq istəyirəm. Yerevanın Teatr meydanında o, demişdir: "Ey mənim sevimli erməni millətim, biz həlli mümkün olmayan bir işdən yapışmışıq. Yaxşı bilin ki, XX əsrdə türklərin yetişdirdiyi iki qüdrətli adam var: Atatük və Heydər Əliyev. Onlardan ikincisi sağdır. Bütün cəhdlərimizə baxmayaraq, o, çekist məharəti ilə hər tələdən qurtarır. Bilin ki, nə qədər o sağdır, biz nə Qarabağı ala biləcəyik, nə də başqa əraziləri. O, bizdən ağır zərbələr alsa da, Azərbaycan xalqı ən çətin günlərdə yenidən onu Bakıya gətirəcək və bununla da bizim arzularımız puça çıxacaqdır".

Bu düşünülmüş fikrə nə demək olar?! Yalnız bir kəlmə: "Ay başıbəlalı erməni xalqı, yadda saxla ki, Atatürk və Heydər Əliyevlə yanaşı, türk dünyasının İlham Əliyevi də var!"

***Arif RƏHİMZADƏ,***
***Yeni Azərbaycan Partiyası Veteranlar Şurasının sədri***

# İnklüziv Azərbaycan ölkənin gələcəyinə yatırımdır

**Hər hansı bir inkişaf prosesi o zaman uğurlu olur ki, onun əsası düzgün qoyulsun və inkişaf strategiyasının hədəfləri dəqiq müəyyənləşdirilsin. Azərbaycan Respublikasının uğurlarının kökündə də məhz Ulu Öndər Heydər Əliyev tərəfindən yüksək peşəkarlıq və uzaqgörənliklə işlənmiş inkişaf strategiyası dayanır.**

Hazırda ölkə sürətlə inkişaf etməkdədir. Bu tərəqqi prosesi hərtərəfli və universaldır, iqtisadi, sosial, humanitar, hərbi təhlükəsizlik sahələrində tətbiq edilən innovativ dövlət idarəçilik texnologiyalarına əsaslanır. Bunun nəticəsidir ki, ölkə Prezidenti, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə aparılan 44 günlük şanlı Vətən müharibəsində qazanılmış parlaq qələbə sayəsində ölkənin ərazi bütövlüyü bərpa edildi, BMT Təhlükəsizlik Şurasının münaqişə ilə bağlı qətnamələri yerinə yetirildi, bir milyona yaxın qaçqın və məcburi köçkünün hüquqları bərpa olundu. Azərbaycan Respublikasının sürətli, hərtərəfli və innovativ inkişafının davamlılığının təmini baxımından Prezident İlham Əliyev parlaq Vətən müharibəsindən dərhal sonra ölkənin növbəti prioritetlərini hədəflədi. Uğurlu iqtisadi və sosial siyasətin məhsulu olan inklüziv cəmiyyətin qurulması 2030-cu ilə qədər prioritet kimi müəyyən edildi. Bu məqsədə nail olmaq üçün yüksək rəqabətqabiliyyətli, dayanıqlı iqtisadiyyatın formalaşması, insan potensialının davamlı təkmilləşdirilməsi, ekoloji tələblərə cavab verən yaşıl iqtisadiyyatın inkişafı nəzərdə tutulmuşdur. Bütün bu tədbirlər azad edilmiş ərazilərə böyük qayıdışın vacib şərti kimi dəyərləndirilir.

Azərbaycan Respublikasının bugünkü hərtərəfli uğurlu inkişafının kökündə səmərəli və innovativ dövlət idarəçiliyi dayanır. Bu prosesin əsasını Ümummilli Lider Heydər Əliyev qoymuş və olduqca mürəkkəb bir şəraitdə müstəqilliyini yenicə bərpa etmiş ölkənin dövlət idarəçilik sistemini qurmuşdur. Güclü xarici və daxili təzyiq və hərtərəfli təxribatlara baxmayaraq, Ulu Öndər Heydər Əliyevin rəhbərliyi ilə ölkə siyasi, iqtisadi və sosial böhrandan çıxmış, stabil inkişaf prosesinə qədəm qoymuşdur. 1993-cü ilin iyununda xalqın tələbi ilə ölkədə hakimiyyət vakuumu aradan götürülüb, Heydər Əliyev hakimiyyətə gəlməsəydi, Azərbaycanın müasir durumunu təsəvvür etmək, doğrudan da, çətindi. Məhz onun sayəsində baş qaldırmış separatçı qüvvələr, Azərbaycan dövlətçiliyinə, müstəqilliyə, ərazi bütövlüyünə qəsdlər törədən cinayətkar ünsürlər zərərsizləşdirildi, dövlət ilə xalqın birliyi, yekdilliyi təmin edildi. Qısa müddətdə müstəqil Azərbaycan siyasi, sosial-iqtisadi, mədəni sahələrdə böyük nailiyyətlər qazandı. Heydər Əliyev ölkədə köklü islahatlara start verdi. O, dəqiq dərk edirdi ki, bəşəriyyət tarixinin yeni mərhələsinə uyğunlaşmaq üçün ölkənin tamamilə dəyişməsi zəruridir.




**İnklüziv inkişaf sahəsində müasir vəziyyətin müqayisəli təhlili: Azərbaycan Respublikası və dünya ölkələri (mötərizədə ölkənin İnklüziv İnkişaf İndeksinin dəyəri verilib). Mənbə: Davos Dünya İqtisadi Forumu, Dünya Bankı.**

Son 18 ildə isə bu proses daha da güclənmiş və yeni səviyyəyə qalxmışdır. Bu, Prezident İlham Əliyev tərəfindən innovativ dövlət idarəçilik elminə əsaslanan tam yeni texnologiyaların tətbiqinin nəticəsidir. Ölkədə Birinci vitse-prezident institutunun təsisi, bu vəzifədə Heydər Əliyev Fondunun prezidenti, UNESCO və ISESCO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyevanın milli və beynəlxalq səviyyədə parlaq fəaliyyəti, xüsusilə də iqtisadi nailiyyətlərin sosial və humanitar uğurlara səmərəli transformasiyasının təmin edilməsinə yönəlik xidmətlərinin inkişaf proseslərinin uğurunda payı olduqca böyükdür. Bu, xüsusilə dünyanın ən müasir prioriteti olan inklüziv cəmiyyətin formalaşdırılmasında da öz əksini tapmışdır.

İnklüziv inkişaf dövlət idarəçiliyinin elə yoludur ki, onun tətbiqi nəticəsində ölkə hərtərəfli inkişaf edir və bu prosesin müsbət nəticələrini bütün vətəndaşlar hiss edir. İnklüziv inkişaf dünyanın 21-ci əsrdə ən əsas prioriteti kimi son illər formalaşmışdır. 2018-ci ildə dünya ölkələrinin bu sahədə nailiyyətləri dəyərləndirilmişdir. Bu dəyərləndirmə 12 iqtisadi, sosial, demoqrafik və ekoloji göstəricilər əsasında beynəlxalq təşkilatlar tərəfindən həyata keçirilir. Ümummilli Lider Heydər Əliyev tərəfindən əsası qoyulmuş inkişaf strategiyası, Prezident İlham Əliyev tərəfindən bu strategiyanın təkmilləşdirilməsi və müasirləşdirilməsi nəticəsində son illər Azərbaycan Respublikası bütün göstərilən istiqamətlərdə yüksək nəticələr əldə etmişdir və davamlı inklüziv inkişafın idarəedilməsi sahəsində dünya liderləri sırasındadır.

BMT-də hazırda 193 ölkə üzv kimi rəsmi qeydiyyatda var ki, onların əksəriyyətinin iqtisadi, sosial, demoqrafik və ekoloji parametrləri beynəlxalq təşkilatlar tərəfindən təhlil edilir və dəyərləndirilir. Həmin dəyərləndirmələr əsasında fərqli sahələrdə fəaliyyəti təkmilləşdirmək məqsədilə tədbirlər təklif edilir. Dünyanın fərqli ölkə və regionlarında iqtisadi və sosial sahələrdə vəziyyəti təhlil edən beynəlxalq təşkilatlar arasında Davos Dünya İqtisadi Forumu xüsusi nüfuza malikdir. Bu təşkilatın ekspertləri dünyanın 146 ölkəsində davamlı inkişaf və inklüziv cəmiyyətin qurulması ilə bağlı mövcud vəziyyəti dəyərləndirmişdir. Şəkildən göründüyü kimi, Azərbaycan Respublikasının inklüziv inkişaf indeksi 4,69-a bərabərdir. Həmin göstərici ilə Azərbaycan Respublikası dünyada 25-ci yerdədir. Bu, olduqca yüksək nəticədir. Müstəqilliyini yalnız 30 il əvvəl bərpa etmiş Azərbaycan bu göstəriciyə görə dünyanın bir çox lider ölkələrini geridə qoyub. Bu ölkələr arasında "böyük yeddilik" (G7) qrupuna daxil olan dünya liderləri (ABŞ, İtaliya, Yaponiya), dünyanın iqtisadi baxımından ən inkişaf etmiş 39 ölkəsini birləşdirən İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatının üzvləri (İsrail, Argentina, Çili, Yunanıstan, Portuqaliya, Meksika və s.), Avropa İttifaqının üzvləri (Latviya, Polşa, Rumıniya, Bolqarıstan və s.) də var.

Şəkildə təqdim olunan bütün bu ölkələrin iqtisadi imkanları Azərbaycan Respublikasından əhəmiyyətli dərəcədə yüksəkdir. Beynəlxalq Valyuta Fondunun 2021-ci ildə dərc edilmiş məlumatlarına əsasən, Azərbaycan Respublikası adambaşına düşən gəlirlərə görə bu ölkələr arasında 83-cü yerdədir. Beləliklə, iqtisadi imkanı 83-cü yer səviyyəsində olan ölkə öz fəaliyyətini optimal təşkil edərək inklüziv inkişaf göstəricilərinə görə 25-ci yerə qalxa bilmişdir. Bu onu göstərir ki, inklüziv inkişafın idarəedilməsi sahəsində Azərbaycan Respublikasının nailiyyətləri ölkənin iqtisadi imkanlarından 58 bənd yüksəkdir. Məhdud resurslarla daha yüksək nəticələrin əldə edilməsi yalnız çox yüksəksəviyyəli dövlət idarəçiliyinin təzahürü və Heydər Əliyev dövlət idarəçilik məktəbinin bəhrəsidir. Ölkə Prezidenti İlham Əliyevin dünyada ən müasir idarəçilik elminə əsaslanan novator fəaliyyəti bu yüksək nailiyyətlərin qazanılmasını təmin etmişdir. Qlobal miqyaslı nailiyyətlərin əldə edilməsində ölkənin Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın olduqca əhəmiyyətli xidmətləri var. Mehriban xanımın təşəbbüsü ilə Azərbaycanda və xarici ölkələrdə həyata keçirilən inklüziv təhsil, inklüziv sağlamlıq və digər çoxsaylı sosial təşəbbüs və layihələr ölkənin davamlı inkişafına və inklüziv cəmiyyətin formalaşmasına güclü təkan vermişdir. Qeyd edilməlidir ki, inklüziv cəmiyyətin qurulması ölkənin 2030-cu il üçün planlaşdırılmış əsas prioritetləri sırasındadır.

Dövlət idarəçiliyi sahəsində fəaliyyət səmərəliliyinin dəyərləndirilməsi zamanı ölkənin dünyada gəlirlərinə görə tutduğu yer inklüziv inkişaf göstəricisinə görə tutduğu yerlə müqayisə edilir. Bu rəqəmlər, bir qayda olaraq, ya eyni olur, ya çox az fərqlənir. Məsələn, adambaşına düşən ümumdaxili məhsulun həcminə görə Fransa dünyada 19-cu yerdədir. Beynəlxalq statistikaya əsasən inklüziv inkişaf indeksinə görə də Fransa dünyada 19-cu yerdədir. Bu normal bir vəziyyətdir və ölkənin iqtisadi imkanlarından inklüziv inkişaf üçün kifayət dərəcədə səmərəli istifadəsindən xəbər verir. Lakin bəzi hallarda ölkələrin davamlı inklüziv inkişaf sahəsində qazandığı nailiyyətlər və dünyadakı reytinqi onların iqtisadi imkanlarından və bu sahədə reytinqindən daha yüksək olur. Məsələn, bir sıra inkişaf etmiş ölkələrin inklüziv inkişaf sahəsində reytinqləri onların iqtisadi imkanlarından 3-5 pillə yüksəkdir, yəni bu ölkələrin reytinqi +3 və +5 arasında dəyişir. İqtisadiyyatda çox yüksək nəticələr əldə etmiş Almaniya, Avstriya, İsveçrə, Belçika, Avstraliya bu ölkələr sırasındadır.

Adətən belə təhlillər iqtisadi baxımdan eyni qrupa aid olan ölkələr arasında aparılır. Beynəlxalq təsnifata əsasən, keçid iqtisadiyyatına malik olan qrupda Polşa, Litva, Latviya, Macarıstan, Slovakiya Respublikası, Rumıniya və bir sıra digər ölkələr təmsil olunur. Azərbaycan Respublikası beynəlxalq təsnifata görə, keçid iqtisadiyyatına malik olan ölkələr qrupuna aiddir. Buna baxmayaraq, inklüziv inkişafın idarəedilməsində nümayiş etdirdiyi səmərəliliyə görə həm iqtisadiyyatda çox yüksək nəticələr qazanmış, həm də keçid iqtisadiyyatına malik ölkələr arasında birinci yerdədir. Bu qrupda Azərbaycan Respublikasının qazandığı nəticə +23 kimi qeyd edilmişdir. Eyni indikatora görə, dünyada ikinci yerdə +13 göstəricisi ilə Çex Respublikası qərarlaşıb. Üçüncü yeri bir qrup ölkələr bölür ki, bunlar İslandiya, Estoniya, Koreya Respublikası, Slovakiya və digərləridir. Onların göstəriciləri +7 və +9 arasında dəyişir.

Göründüyü kimi, Heydər Əliyev idarəçilik ənənələrinə sadiqlik nümayiş etdirərək Prezident İlham Əliyev Azərbaycan Respublikasını tamamilə müasirləşdirib və zamanında üçüncü dünya girdabından qurtararaq lider ölkələr sırasına çıxarıb. İllər öncə Heydər Əliyevin bu gün XXI əsrin prioriteti kimi müəyyənləşdirilən "Davamlı İnkişaf Məqsədləri"ndə yer alan hədəfləri coğrafi baxımdan kiçik Azərbaycan miqyasında gündəmə gətirdiyi kimi, onun siyasi varisi və layiqli davamçısı İlham Əliyev də inklüziv cəmiyyətin qurulmasına yönəlik ilk təşəbbüsləri ilə yenə dünyadan bir addım öndədir.

*Tarixi baxımdan qısa zaman kəsiyində ölkənin sükanı başında iki qlobal düşünən həqiqi liderin yer alması, doğrudan da, Azərbaycanın böyük şansıdır. Və Azərbaycanın sabahı naminə bu şansın dəyərləndirilməsi sayəsində ölkənin ən yeni tarixinə daha parlaq qələbələr yazılacaq.*

***Urxan ƏLƏKBƏROV,***
***Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının rektoru, akademik***



# Tarixin ən qüdrətli Azərbaycanının və möhtəşəm Zəfərin müəllifi



◆ Müəllifi İlham Əliyevdir





# Qafqazın ən böyük və modern sənaye məhəlləsi

## Hacıqabulda fəaliyyətə başlayan yeni müəssisələr tezliklə məhsullarını "Made in Azerbaijan" brendi ilə dünya bazarına çıxaracaqlar

Əvvəli 1-ci səh.

Yəni müəyyən səbəblərdən elektrik kəsilərsə, dərhal generator işə düşür, məhəllədə elektrik enerjisi kəsilmir.

Məhəllənin mühüm üstünlüyündən biri də odur ki, ərazinin yaxınlığından respublikanın baş magistral dəmir yolu xətti keçir. Həmin xətdən məhəlləyə 1700 metr uzunluğunda ayrıca dəmiryol xətti çəkilib, yükləmə-boşaltma məntəqəsi üçün sahə ayrılıb. Müəssisələrin istehsal etdiyi məhsulların məhəllənin ərazisindən birbaşa istənilən məkana qatarla çatdırılması da mümkündür. Eyni zamanda sahibkar hər hansı yerdən aldığı xammalı da birbaşa qatarla məhəlləyə gətirə biləcək. Bu da sahibkarların əlavə nəqliyyat xərcindən azad olmaları deməkdir.

Sahibkarların buraya daha çox maraq göstərməsinin digər səbəbi isə məhəllənin həm Bakı Beynəlxalq Dəniz Ticarət Limanına, həm də Ələt Azad İqtisadi Zonasına yaxın ərazidə yerləşməsidir.


























### Maye, toz, gel, yarpaq gübrələri, plastik tara və su qabları istehsalı

Sənaye məhəlləsinin imkanları ilə tanış olduqdan sonra istehsala başlayan müəssisələrə baş çəkirik. İlk olaraq İlham Əliyevin aprelin 20-də işə saldığı "AzAgromila" MMC-nin istehsalat korpusunda gedən proseslə maraqlanırıq.

Müəssisənin kimyaçı texnoloqu Elçin Pirəliyev deyir ki, maye, toz, gel, yarpaq formalı gübrələr istehsal edirlər. Müəssisənin yaradılmasına 4,35 milyon manat investisiya qoyulub və 30 iş yeri açılıb. Layihənin həyata keçirilməsi üçün İqtisadiyyat Nazirliyi tərəfindən investisiya təşviqi sənədi və 900 min manat güzəştli kredit verilib. İllik 6 min ton gübrə istehsal etmək gücünə malik olan zavod Türkiyə texnologiyası əsasında qurulub. Hələlik daxili tələbatı ödəmək üçün məhsul istehsal edən müəssisə yaxın zamanlarda ixracata da başlayacaq.

Texnoloqun sözlərinə görə, yerli fermerlər istehsal etdikləri gübrələrə böyük maraq göstərirlər və hər gün durmadan sifarişlər alırlar.

Məhəllənin rezidentlərindən biri "Plasttech" MMC-dir. 700 kvadratmetrlik ərazi icarəyə götürən şirkət plastik taralar istehsal edir. Operator Taleh Muradovla söhbət zamanı bəlli oldu ki, investisiya dəyəri 1,2 milyon manat, illik istehsal gücü isə 600-900 ton olan müəssisədə müxtəlif ölçüdə, müxtəlif rəngdə 10 çeşiddə plastik taralar hazırlanır.

Azərbaycan Prezidentinin açılışını etdiyi digər obyekt isə "Uyusal Ambalaj" plastik su qabları istehsalı müəssisəsidir. Bu şirkət artıq 15 ildir ki, Azərbaycanda fəaliyyət göstərir. Artıq bu sənaye məhəlləsində də məhsullarını istehsal edəcək. Müəssisənin istehsalat rəisi Anar Süleymanovla söhbət zamanı bəlli oldu ki, Yaponiya texnologiyasından istifadə edilən müəssisədə il ərzində 350 min ədəd su qabı istehsal olunacaq. Su qabları Azərbaycanda su istehsal edən müəssisələrə satılır. Yəni artıq xarici bazardan məhsul almağa ehtiyac yoxdur. Yerli istehsal qiymətlərə də təsir edəcək. Keyfiyyət və qiymət sahəsində də üstünlüklər var. İstehsalat rəisi dedi ki, qabların istehsalı üçün xammalı "SOCAR Polymer" və "Pektim" şirkətlərindən alırlar.

### Azərbaycanda ilk dəfə - "açar-təhvil" prinsipi ilə işləyən zavod

Sənaye məhəlləsində fəaliyyət göstərən digər müəssisə "Elberq" Maşınqayırma Zavodudur. Bu zavod ölkədə tikinti materiallarının istehsalı müəssisəsini qurur və onların avadanlıqlarını istehsal edir. Müəssisənin baş operatoru Tural Qafarov dedi ki, investisiya dəyəri 12 milyon manat olan zavodda quraşdırılan müasir texnologiyalar hesabına istehsal olunacaq avadanlıqlar yüksək keyfiyyəti ilə seçiləcək. Müəssisənin əsas fəaliyyət istiqaməti tikinti materiallarının istehsalı zavodlarının layihələndirilməsi və onların əsasında avadanlıqların istehsalıdır. Bu layihə Azərbaycanda ilk dəfədir ki, reallaşdırılır. Müəssisə "açar-təhvil" prinsipi ilə işləyir. Belə təcrübə dünyada da var. Müəssisədəki dəzgahlar Türkiyə və Yaponiya istehsalıdırlar. Bu dəzgahlar vasitəsilə müxtəlif təyinatlı dəmir lövhələr, turbalar və digər materiallar hazırlanır.

Zavodla tanış olarkən maraqlı lövhə diqqətimizi çəkdi. Dəmir lövhə üzərində kəsmə üsulu ilə "Qarabağ Azərbaycandır!" şüarı yazılıb. Tural Qafarov dedi ki, lövhə Vətən müharibəsi zamanı zavodun əməkdaşları tərəfindən hazırlanıb. Onun hazırlanmasında zavodun əməkdaşı Emil Hümbətovun əməyi çox olub. 28 yaşlı Emil döyüşlər başlayandan sonra könüllü olaraq ordu sıralarına qoşulub. Füzuli istiqamətində gedən döyüşlərdə qəhrəmancasına savaşaraq şəhid olub. Müəssisənin rəhbərliyi və kollektivi şəhidlik zirvəsinə ucalan Emilin xatirəsini yüksək ehtiramla anırlar. Onun hərbi mundirdə olan şəkli böyüdülərək divardan asılıb. Ruhu şad olsun şəhidimizin!

### Xüsusi təyinatlı avtomobillər istehsal ediləcək

Məhəllənin digər rezidenti isə "Azərmaş" Avtomobil Zavodudur. "Azərmaş" burada torpaq sahəsi götürərək öz profilinə uyğun zavod tikib. Tezliklə zavodda müxtəlif təyinatlı avtomobillərin istehsalına başlanılacaq. Yeni Neftçala Sənaye Məhəlləsindən sonra Hacıqabulda da avtomobil istehsal olunacaq.

Bu müəssisə ildə 1500 ədəd yük və xüsusi təyinatlı avtomobil istehsal etmək imkanına malikdir. Müəssisə Hacıqabul rayonunda 100 nəfərdən çox insanın məşğulluğunu təmin edəcək. Bu zavodda Özbəkistan və Rusiya ilə birgə layihələr icra olunacaq.

Bu müəssisənin istifadəyə verilməsi rayonun iqtisadi inkişafı üçün böyük təkan olmaqla yanaşı, ölkəmizdə avtomobil sənayesinin formalaşmasında da mühüm rol oynayacaq.

Göründüyü kimi, İlham Əliyevin modern sənayeləşmə istiqamətində atdığı addımlar əsasında Hacıqabul Sənaye Məhəlləsində yeni müəssisələr sənayedə və bütövlükdə real sektorda kifayət qədər prioritet istiqamətlər üzrə yaradılıb. Hazırda Neftçalada, Masallıda, Hacıqabulda sənaye məhəllələri fəaliyyət göstərir. Sabirabad və Şərurda sənaye məhəllələrinin tikintisi davam etdirilir. Prezidentin tapşırığına əsasən, ölkəmizin digər regionlarında da sənaye məhəllələrinin təşkili istiqamətində araşdırmalar aparılır.

Hacıqabul Sənaye Məhəlləsinin açılışı zamanı dövlət başçısı tezliklə işğaldan azad edilmiş torpaqlarımızda da yeni sənaye parklarının, məhəllələrinin yaradılmasının vacibliyini vurğulayıb. Tezliklə Qarabağda ən müasir standartlar səviyyəsində yeni sənaye müəssisələri yaradılacaq. Bu müəssisələrdə istehsal olunan məhsullar yerli bazarla yanaşı, "Made in Azerbaijan" brendi ilə xarici bazara da çıxarılacaq. Hacıqabulda yaradılan Qafqazın ən böyük sənaye məhəlləsinin rezidentlərinin müasir dəzgahlar, avadanlıqlar vasitəsilə istehsal etdikləri sənaye məhsuları ilə tanışlıq da onu deməyə əsas verir ki, İlham Əliyevin modern sənayeləşmə siyasəti bu gün bəhrəsini verir və yerli məhsullarımız daxili tələbatı ödəməklə yanaşı, xarici bazara da çıxır. Bu, Azərbaycanın qeyri-neft sənayesinin yüksəlişinin bariz təcəssümüdür.

***Rəşad BAXŞƏLİYEV,***
***Elçin CƏFƏROV,***
***"Azərbaycan"***

# Böyük Qələbə Qarabağın milli-mənəvi irsini də azad etdi

## İşğaldan qurtulan dəyərlərimiz bu torpaqların qədim Azərbaycan yurdu olduğunu yenidən dünyaya çatdıracaq

◆ Qarabağ dirçəliş yolundadır

Əvvəli 1-ci səh.

Bütün beynəlxalq təşkilatlar ermənilərin islam dəyərlərinə qənim kəsildiklərini, məscidləri təhqir etdiklərini, vəhşiliklərini görməlidir.

Qarabağa sonuncu səfəri zamanı Prezident İlham Əliyev Zəngilan məscidinin də təməlini qoydu. Dövlət başçısı bununla bir daha göstərdi ki, azad olunmuş ərazilərimizdə ermənilər tərəfindən dağıdılmış bütün məscidlər bərpa olunacaq, yenidən qurulacaq.

Xatırladaq ki, yalnız beynəlxalq təşkilatların təzyiqləri nəticəsində Şuşa şəhərindəki Aşağı Gövhər ağa, Yuxarı Gövhər ağa və Saatlı məscidlərinin divarlarını salamat saxlamaq mümkün olub. Yuxarı Gövhər ağa məscidi Şuşanın tam mərkəzində yerləşir. Qarabağ xanı İbrahimxəlil xanın qızı Gövhər ağanın adını daşıyır. Üstündəki naxışlar şuşalı xəttat Mir Möhsün Nəvvaba aiddir. Binanın fasadında "Qurani-kərim"dən ayələr həkk edilib. Həmçinin Gövhər ağanın vəsiyyətlərini əks etdirən daş kitabələr də yonulub.









1992-ci ildə Şuşanın işğalından sonra məscid ciddi dağıntılara məruz qalıb. Ermənilər "təmir-bərpa" adı altında məscidin üzərində olan və onun Azərbaycan xalqına məxsusluğunu xatırladan naxışları məhv etməyə çalışıblar. Bununla da məscidi erməniləşdirməyə çalışıblar. Amma nail ola bilməyiblər. Çünki bu məscidin erməniləşdirilməsi mümkün deyil.

Ağdam Cümə məscidinin quru divarlarını isə ermənilər yalnız hərbi məqsədlər üçün saxlamışdılar. İşğaldan sonra ermənilər məscidi benzin töküb yandırıblar, divarlarına təhqiramiz ifadələr yazıblar. İçərisində mal-qara və donuz saxlayıblar.

Ağdamda Şahbulaq ərazisində yerləşən, Pənahəli xan tərəfindən 1751-1752-ci illərdə inşa etdirilmiş Şahbulaq məscidi, onun davamı sayılan Paprəvənd kənd məscidi də eynilə viran qoyulub. Zəngilan, Cəbrayıl rayonundakı, Qubadlının Məmər, Füzulinin Alxanlı kənd məscidlərini də donuz ferması qismində istifadə ediblər.

### Dağıdılan yalnız islam mədəniyyətinə aid olan abidələr deyil

Ümumiyyətlə, işğaldan azad olunmuş ərazilərdə Azərbaycan xalqına məxsus tarixi abidələrin vəziyyəti göstərir ki, ermənilər 1954-cü ildə qəbul edilmiş "Silahlı münaqişə baş verdikdə mədəni dəyərlərin qorunması haqqında" Haaqa Konvensiyasının tələblərini kobud şəkildə pozublar.

30 ilə yaxın işğal dövründə Qarabağda islam mədəniyyətinə aid olan bütün məscidlər, abidələr dağıdılıb. Lakin dağıdılan yalnız islam mədəniyyətinə aid abidələr deyil. Maddi-mədəniyyət abidələrinin zənginliyi ilə seçilən Qarabağda Azərbaycan xalqına məxsus bütün tarixi abidələr də vandallığa məruz qalıb, muzeylər talan edilib, milli eksponatlarımız Ermənistana daşınıb.

İlk insan məskənlərindən olmuş məşhur Azıx və Tağlar mağaraları, Qaraköpək, Üzərliktəpə kurqanları hərbi məqsədlərlə istifadə edilərək qəsdən dağıdılıb. Xocalı, Ağdam, Ağdərə, Füzuli, Cəbrayıl rayonlarındakı kurqanlarla yanaşı, işğal olunmuş Şuşa, Laçın, Kəlbəcər, Qubadlı, Zəngilan, Füzuli rayonlarının ərazilərindəki qəbiristanlıqlar, türbələr, Qafqaz Albaniyasına məxsus abidələr və digər milli abidələrimiz məhv edilib.

Qarabağda erməni vandallarının dağıdıb viran qoyduqları tarixi, mədəni abidələrimiz saysızdır. Bu abidələr Qarabağın Azərbaycan xalqına məxsus qədim yaşayış məskəni olduğunu sübut etdiyindən ermənilər onu dağıtmaq üçün bütün vasitələrə əl atıblar.

Xatırladaq ki, işğaldan azad edilmiş ərazilərdə abidələrin ümumi sayı 3 minə qədərdir. Ermənistan işğal dövründə onları dağıtsa da, tarixi simasını dəyişdirmək istəsə də, Qarabağ torpaqlarının ermənilərə məxsus olduğunu sübut edə bilmədi. Hansısa saxta qazıntılarla Qarabağda "aşkar etdikləri" "erməni tarixi" də iflasa uğradı.

Artıq torpaqlarımız işğaldan azaddır. Qarabağda dağıdılmış bütün milli-mənəvi dəyərlərimiz, tarixi abidələrimiz, məscidlərimiz yenidən qurulacaq və onlar bu torpaqların qədim Azərbaycan yurdu olduğunu yenidən dünyaya bəyan edəcəklər.

***Ramilə QURBANLI,***
***"Azərbaycan"***

# Türkiyə ABŞ-ın təzyiqlərindən daha da güclənmiş bir dövlət olaraq çıxacaq

ABŞ Prezidenti Cozef Baydenin aprelin 24-dəki müraciətində “erməni soyqırımı” ifadəsini işlətməsi heç də təəccüblü deyil. Bu, sırf Türkiyəyə qarşı təzyiq məqsədilə atılan addımdır.

Əsində uydurma “erməni soyqırımı”nın” ideya müəllifi 1913-1916-cı illərdə ABŞ-ın Türkiyədə səfiri olmuş Henri Morqentaudur. Osmanlı İmperiyasının parçalanmasında maraqlı olan ABŞ-ın Prezidenti Vudro Vilson H.Morqentaunu səfir təyin edərkən demişdi ki, tezliklə ondan əsər-əlamət qalmayacaq ki, onu Türkiyə adlandırmaq mümkün olsun. İstanbula gələn kimi, H.Morqentau erməni liderləri və komitəçiləri ilə əlaqə qurmuş, onları silahlı mübarizə aparmağa şirnikləndirmişdi. O, erməni komitəçilərindən olan Arşak Şmavonyanı özünün birinci köməkçisi və tərcüməçisi, Hakop Andonyanı isə katib təyin etmişdi. H.Morqentau ABŞ-ın Türkiyədəki konsulluqlarının, xristian missionerlərinin, erməni komitələrinin uydurduqları yalanları və dərc etdirdikləri böhtanların bir nüsxəsini Vaşinqtona göndərirdi. O, missiyasını başa vurub ABŞ-a qayıtdıqdan sonra həmin uydurma sənədlər əsasında “Səfir Morqentaunun xatirələri” kitabını dərc etdirmişdi ki, həmin kitabdan bu gün də ermənilər Türkiyə əleyhinə faydalanırlar. Sonralar uydurma “erməni soyqırımı” ilə bağlı yüzlərlə saxta kitablar yazıldı.

Birinci Dünya müharibəsi zamanı ermənilər Türkiyə üzərinə hücum edən dövlətlərə kömək edir, təxribatlar törədir, könüllü olaraq düşmən cəbhəsinə keçirdilər. Şərqi Andoluya hücüm edən rus ordusunun tərkibində 150 min erməni vuruşurdu. Üstəlik, ayrıca dörd erməni drujinası türklərə qarşı söyqırımı törədirdi. Türkiyə hökuməti türk ordusuna arxadan zərbənin qarşısını almaq məqsədilə məcburiyyət qarşısında qalıb müharibə rayonundan erməniləri ölkənin içərilərinə köçürmək haqqında qərar qəbul etmişdi. Mühafizə dəstələrinin müşayiəti ilə 1915-ci il mayın 28-də köçürmə işlərinə başlanmışdı. Köçürülmə hərb bölgəsindən kənarda yaşayan ermənilərə şamil edilməmişdi. Bu, o demək idi ki, Osmanlı dövləti mülki erməni əhalisinə qarşı ədalətlə davranmış, bir növ onları labüd ölümün pəncəsindən xilas etmişdi.

Əslində isə həmin gün İstanbulda və digər şəhərlərdə türklərə qarşı xəyanət edən erməni təşkilatlarının təcili olaraq bağlanması, onların rəhbərlərinin həbs edilməsi və sənədlərin ələ keçirilməsi haqqında daxili işlər naziri əmr vermişdi. Arxiv sənədləri sübut edir ki, həmin vaxt Şərqi Anadoluda yaşayan 1,3 milyon ermənінin 1 milyonu salamat qalmışdı. Ölən ermənilərin əksəriyyəti isə döyüşlər zamahı tələf olmuşdular. Tərəfsiz Qərb tədqiqatçılarının qənaətincə, erməni silahlı dəstələri Birinci Dünya müharibəsi dövründə 2,5 milyon türk-müsəlman əhalisini qətlə yetirmişlər.

Türkiyə hələ 1969-cu ildən öz arxivlərini əcnəbi tədqiqatçıların üzünə açmağa hazır olduğunu bəyan etmişdir. Bu gün də israrla Ermənistanın da öz arxivlərini xarici tədqiqatçıların üzünə açmağı tələb edir. Lakin Ermənistan ifşa olunacağından qorxaraq bu addımı atmır.

Bütün bunları nəzərə almadan müasir Türkiyəni 100 il öncə baş verməyən bir cinayətdə günahlandırmaq qərəzçilikdən və tarixi saxtalaşdırmaqdan başqa bir şey deyil. Lakin dünyada ədalətin və qanunların hakim olmadığı bir dövrdə yaşayırıq. Əlcəzairdə, Ruandada, İraqda, Suriyada milyonlarla günahsız insanları qətlə yetirən dövlətlərin Türkiyəni tarixdə olmayan “soyqırımı cinayəti”ndə günahlandırmaları riyakarlıqdan, qərəzçilikdən və əxlaqsızlıqdan başqa bir şey deyil.

Müxtəlif dövlətlərin, Avropa İttifaqı və Avropa Şurası kimi nüfuzlu beynəlxalq təşkilatların indiyədək uydurma “erməni soyqırımı”nı tanımalarının heç bir hüquqi keçərliliyi yoxdur. Rusiya Dövlət Duması 1995-ci ildə uydurma “erməni soyqrımı”nı tanıyıb. Lakin bu “tanınma” Rusiya ilə Türkiyə arasında heç bir problem yaratmır, əksinə, mənafelər uyğun gələn məsələlərdə bu iki dövlət birgə hərəkət edirlər. Eləcə də “uydurma soyqırımı”nı qanunvericilik orqanı səviyyəsində tanıyan bir çox Avropa dövlətləri ilə Türkiyə arasında normal iqtisadi münasibətlər mövcuddur.

C.Baydenin erməni lobbisinin istəyi ilə atdığı bu addım Türkiyənin mövcud hakimiyyətini ABŞ-ın maraqları çərçivəsində hərəkət etməyə məcbur etmək məqsədini daşıyır. Lakin bugünün Türkiyəsi xarici güclərin diktəsi ilə hərəkət edən Türkiyə deyil, əksinə, regionda öz şərtlərini irəli sürən güclü dövlətdir. İkinci Qarabağ müharibəsində bizlər bunun şahidi olduq.

Türkiyə ABŞ-ın təzyiqlərindən daha da güclənmiş bir dövlət olaraq çıxacaq. Bunun ziyanını həmişə zənciri böyük dövlətlərin əlində olan Ermənistanın özü və sadə erməni xalqı görəcək. Bunu Türkiyədə yaşayan ermənilər daha yaxşı dərk edirlər. Ona görə də Türkiyədəki müxtəlif erməni qurumları ABŞ Pezidentinin bu addımını ermənilərin xeyrinə olmayan hərəkət kimi qiymətləndirdilər.

Azərbaycan da öz növbəsində Ermənistanın işğalçı siyasətindən, onun havadarlarının qərəzli və ikili satandartlarından ziyan çəkən dövlət olaraq ABŞ Prezidentinin bu məsuliyyətsiz addımını ən yüksək səviyyədə qınayır. Türkiyəyə qarşı edilən haqsızlığı özünə qarşı atılmış hərəkət kimi qiymətləndirir.

**Nazim MUSTAFA,**
***Prezident Kitabxanasının şöbə müdiri, tarix üzrə fəlsəfə doktoru***

# Yanlış bəyanat, tarixi səhv

Birləşmiş Ştatlar hər zaman dünya ictimaiyyətinin baş mövzusu olmağa çalışır və buna nail olur. Fərq eləməz hansı əməli ilə, əsas məqsədi dünyanın mərkəzi olmaq istəyidir. Co Baydenin “qondarma soyqırımı bəyanatı” da bu istəyin təzahürüdür.

Birləşmiş Ştatlar artıq əsrlərdir ki, bəlli bir siyasət üzrə hərəkət edir: şəxsi mənafe üçün bütün dünyanı xərcləmək və bu yolda maneələri məhv etmək. Bu məqsədlə dövlətlər ya hərbi, ya iqtisadi yolla təzyiq altına salınır, öz marağını demokratiya kimi diktə edir. Hər gələn yeni Prezidentə isə tarixdə qalmaq üçün sanki gözəgörünməz qüvvələr tərəfindən hərəkət etdirilən bu prosesə - konveyerə sadəcə öz “naxışını” vurmaq qalır. Biri Yaponiyaya atom bombası atır, biri Koreyada, o biri Vyetnamda dinc əhalini qırır, biri müsəlman ölkələrinə şər atıb ölkəni bombalarla viran edir, bir başqası da yeni silah bazarı açmaq üçün ölkələr arasında nifaq salıb, qaynar ocaqlar yaradır. Diqqətlə təhlil edəndə hər Prezident məhz öz “naxışı” ilə yadda qalır. Co Bayden də “soyqırımı” ifadəsini işlətməklə buna cəhd etdi. Əslində sırf siyasi olan bu məsələyə bir də fəlsəfə bucağından baxmaq maraqlıdır.

## Soyqırımı, yaxud sivilizasiyanın dəhşətləri

Soyqırımı bir termin olaraq XX əsrin ortalarında yaransa da, bir cinayət kimi yalnız faşizmin İkinci Dünya müharibəsi zamanı törətdiyi vəhşiliyin mühakiməsindən sonra qəbul edilsə də, onun tarixi daha dərindir. Onu da əlavə edək ki, soyqırımlar müharibələrə nisbətdə daha az sayda baş versə də, qurbanlarının sayına və törətdikləri qəddarlığın miqyasına görə müharibədən daha böyük və daha dəhşətlidirlər. Soyqırımı hadisəsi elmin müxtəlif sahələrində kifayət qədər öyrənilmiş və öyrənilməkdədir. Faktla bağlı biz də öz mülahizələrimizi bölüşmək qərarına gəldik. Soyqırımların törənmə səbəblərini nəzərə alsaq, onları aşağıdakı şəkildə təsnifləşdirmək olar:

1. *Müharibə əməliyyatları nəticəsində vəhşiləşmiş əsgərlərin qarşısıalınmaz hərəkətlərinin “məntiqi davamı” olan soyqırımı.* Birləşmiş Ştatların Uzaq Şərqdəki hərbi əməliyyatlarını bu qəbildən olan soyqırımlardan hesab etmək olar (1965-1975-ci illərdəki Vyetnam və ya İkinci Hind-Çin müharibələri). Onu da qeyd etmək lazımdır ki, belə soyqırımlar bəzən müharibənin bir hissəsi kimi qəbul edilir. Təbii ki, belə olan halda bu həm hadisənin bir soyqırımı kimi düzgün qiymət almamasına, həm də müəyyən xalqların haqlarının pozulmasının cəzasız qalmasına gətirib çıxarır.

2. *Müəyyən əraziləri ələ keçirmək və bu məqsədlə həmin ərazidə yaşayan xalqların kütləvi şəkildə qırılmasının nəticəsi olan soyqırımı.* Buna misal olaraq, Amerika materikində avropalıların (əsasən də ispanların) yerli əhali olan hinduları məvh etmələri faktını göstərmək olar. “Müasir məlumatlara əsasən, 12 oktyabr 1492-ci ildə Xristofor Kolumb tezliklə “Yeni dünya” adlandırılacaq qitənin adalarından birinə düşəndə onun əhalisi 100-145 mln. nəfər idi. İki əsr sonra əhalinin sayı 90 faiz azalmışdı. Bu gün hər iki Amerikanın sağ qalmış “ən xoşbəxt” xalqları 5 faizdən çox təşkil etmir. Özünün miqyasına və bu günə qədər davamiyyətinə görə Qərb yarımkürəsinin yerli əhalisinin soyqırımının dünya tarixində paraleli yoxdur. Belə ki, 1492-ci ilə qədər 8 mln. məntəqə çiçəklənməkdə idi. 1570-ci ildən isə yerli əhalinin ancaq iki bərbad kəndi qalmışdı. 80 il əvvəl Kolumb onlar haqqında “dünyada onlardan daha yaxşı və mülayim adamlar yoxdur” deyə yazmışdı”.

3. *Müəyyən xalqın digər xalqa nifrəti nəticəsində olan soyqırımı.* Bu, soyqırımının daha çox rast gəlinən halıdır. Nifrətin səbəblərini də müxtəlif şəkildə qruplaşdırmaq olar:

a) *dini barışmazlıq. Bu qəbildən olan soyqırımlara əsasən “1096-1291-ci illər ərzində (1096-1097 - İ, 1147-1149-cu illər - İİ, 1189-1192-ci illər - İİİ, 1201-1204-cü illər - İV Xaç yürüşləri) müqəddəs xristian məbədlərinin və Fələstinin müsəlmanların (və yəhudilərin - K.B.) hakimiyyətindən azad edilməsini özlərinə şüar götürmüş Avropa katolik qüvvələrinin hərbi ekspedisiyaları” şəklində aparılan Xaç yürüşlərini aid etmək olar. Məlumatlara görə, İ Xaç yürüşündə Metsada 23 yəhudi öldürülür, Şpeyerdə xaçlılar bir hissə yerli əhalinin köməkliyi ilə “xaç suyuna çəkilmək istəməyən hər yəhudini öldürürdülər”, “məcburən xaç suyuna çəkilməmələri üçün anaları öz övladlarını öldürürdülər”, “Trirdə yəhudilər çayda batırılırdılar”. Ümumiyyətlə, yalnız “1096-cı ildə (İ Xaç yürüşündə) Almaniya və Çexiyada 5 min yəhudi öldürülmüşdü”.*

b) *şəxsiyyətə pərəstiş kimi təyin edilə bilən, özünün bir xalq olaraq digərlərindən yüksək dəyərləndirilməsi. Buna misal olaraq alman faşizmini göstərmək olar. Məlumatlara görə, “Böyük Vətən müharibəsi illərində SSRİ-dən Almaniyaya 5.269.513 insan aparılmışdı. Onların taleyi amansız olmuşdur. Ərazi azad ediləndən sonra düşərgə yerləşən yerdə böyük bir çalada 3000 qızıl əsgər və sovet vətəndaşının meyiti tapılmışdır. Meyitlərə baxış zamanı işgəncələrin nə dərəcədə vəhşicəsinə olması aydın oldu: çoxunun əlləri, ayaqları sındırılmış, kəllə sümükləri əzilmiş, qulaqları kəsilmiş, gözləri çıxarılmışdı”.*

c) *özünün başqa xalqdan əskikliyini gizlətməkdən doğan hərəkət. Bunun ən bariz nümunəsini ermənilərin türklərə qarşı törətdiyi vəhşilikdə görmək mümkündür. Ermənilər əsrlərdir öz mədəniyyətlərini, tarixlərini, hətta dövlətlərini də türklərdən, xüsusilə Azərbaycan türklərindən oğurladıqları əsasında qurublar və hələ də belə davam edirlər. Bu baxımdan türklərin varlığı onların yoxluğunun sübutudur. Deməli, saxta varlığı təsdiq etmək üçün orijinalı məhv etmək bir zərurətdir. Ermənilər əsrlərboyu türklərə qarşı məhvetmək aktlarının bütün növlərindən istifadə etmiş, vaxtaşırı, köməyi artanda isə soyqırımlar törətmişlər: 1905, 1918-1920, 1988-1993-cü illərdə baş vermiş hadisələr buna misaldır.*

“XX əsrin birinci yarısında Zaqafqaziyada baş vermiş iki qırğın zamanı (1905-1907-ci illər, 1918-1920-ci illər) 2 milyona yaxın azərbaycanlı ermənilər tərəfindən qətlə yetirilmiş, öz ev-eşiyindən zorla qovulmuşdur.

Mart qırğını zamanı Bakı şəhərinin təkcə bir yerində qulaqları, burunları kəsilmiş, qarınları yırtılmış 57 azərbaycanlı qadınının meyiti tapılmışdır. Gənc qadınların diri-diri divara mıxlanması, ermənilərin hücumundan sığınmağa çalışan iki min nəfərin yerləşdiyi şəhər xəstəxanasının yandırılması da bu dəhşətli faktların sırasındadır. Onu da qeyd edək ki, istinad etdiyimiz mənbəyə görə, yalnız Bakıda deyil, ümumiyyətlə, İrəvan quberniyasından tutmuş Naxçıvan qəzasına qədər ermənilər tərəfindən minlərlə dinc əhali qətlə yetirilmiş, qadın, uşaq və qocalara işgəncələr verilmiş, mədəni abidələr dağıdılmışdır.

1992-ci ilin 25-26 fevralında Xocalıda erməni və onun muzdlularının törətdiyi soyqırımı nəticəsində 613 insan öldürülmüş, 487 nəfər şikəst edilmiş, 1275 nəfər əsir götürülmüşdür. Ölənlərdən 106 nəfəri qadın, 83-ü uşaq olmuşdur. Bu faktların yanına Quba kütləvi məzarlığı, yaxud son günlər Kəlbəcər ərazisində tapılan kütləvi məzarları da əlavə etsək, XX əsrin erməni obrazını nisbətən tamamlamış olarıq.

Göründüyü kimi, soyqırımı bəşər tarixində zaman-zaman baş verən, əksər hallarda öz hüquqi qiymətini ala bilməyən hadisədir. Qısa xronologiyadan aydın oldu ki, soyqırımları dəhşəti sivilizasiyanın inkişafı ilə heç də azalmamış, əksinə, hətta artmışdır. Məhz son əsrlər ərzində ermənilərin türklərə, xüsusilə Azərbaycan türklərinə qarşı törətdikləri soyqırımı hadisələrinin bir neçə dəfə təkrarlanması və belə hadisələrin dünya ictimaiyyətində əks-sədasız qalması, öz cəzasını almaması, əvəzində uydurulmuş tarixi faktlara rəvac verilməsi soyqırımların gələcəkdə də bəşəriyyəti dəhşətə gətirəcəyi faktından xəbər verir.

## Co Baydenə qalan “soyqırımı mirası”

Artıq neçə illərdir ki, hər aprel ayının 24-də gözlər dikilir ekrana və gözləyir: Birləşmiş Ştatların Prezidenti ermənilərin gözlədiyi bəyanatı verəcək, ya yox?! Lazım olan kəlməni işlətməsi üçün dünyadakı erməni lobbiçiliyi bütün gücünü, bacarığını səfərbər edir. Bu bir kəlmə nəyi həll edir? Nə üçün məhz ABŞ Prezidenti? Nə üçün məhz erməni? Burada bir-birini tamamlayan bir neçə məsələ var.

Əvvəla, məhz öz əlləri qana batmış bir ölkənin (!) başçısı vəzifəyə seçiləndə həmin günahı da miras alır. Ölkə Prezidenti “bu qiymətli mirası” qorumaqla yanaşı, onun üzərinə əlavələr etməyi də özünə borc bilir. Zatən, seçki kampaniyasında bunu vəd etmiş olur, yoxsa səs toplaya bilməz. Vyetnamda 4 mln, Koreyada 3 mln, Kambocca və Laosda 1 mln, Əfqanıstanda 1.5 mln, İrakda 1 mln dinc əhalini qıran bir dövlətin gözü kölgəlidir və özü kimi cinayətkarın havadarı olmaq onun “müqəddəs missiyasıdır”. Düzdür, bu rəqəmlər sadəcə statistika kimi qəbul edilir, ancaq belə böyük miqyaslı bir cinayəti gizlətmək üçün dünyanın ən güclüsü olmaq şərtdir. Erməni üsulu: öz varlığını sübut eləmək üçün digərlərini yox etmək lazımdır.

İkinci məsələ də məhz bundan irəli gəlir. Son illərin hadisələri Türkiyənin kifayət qədər gücləndiyini göstərir. Ən vacibi isə, 44 günlük müharibədə onun Azərbaycanın yanında olmağı Türkiyənin ədalətin yanında olub cinayətkara lazımi dərs verməyə qadir olduğunu göstərdi. Maraqlı sual yaranır: dünyada son illər bu qədər haqsızlıq, günahsız qətllər törədildiyi halda nə üçün ABŞ məhz erməni faktoru üzərində dayanır? Çünki erməni Türkiyənin - ədalətin tərəfdarının əleyhinə işlədilə biləcək bir silahdır, daha doğrusu, kor bıçaqdır. Düzdür, Türkiyə və ABŞ müəyyən məsələlərdə tərəfdaşdırlar, hər birinin öhdəliyi var. Bununla belə Bayden və onun simasında ABŞ bilir ki, haqq-ədalət məsələsində Türkiyənin tək öhdəliyi var: günahsızın arxasında durub cinayətkarı cəzalandırmaq. Belə olan halda ABŞ sövq-təbii onu düşmən görür. Vacib bir məqamdır ki, dünənə kimi dünyaya silah ucunda demokratiya “ixrac” edən və sanki dünyadakı “əmin-amanlığı” qorumağı özünün müqəddəs missiyası hesab edən ABŞ-a birdənbirə rəqib çıxdı. Belə məlum oldu ki, demokratiya müstəqil ölkələrin ərazilərini işğal etmək, onların sərvətini talamaq, işğalçıya göz yumub, əzilənin haqqını yemək deyilmiş, əksinə, haqq tərəzisini həqiqətən düzəltmək imiş. Təbii ki, belə olan halda o, Türkiyədə illərin tərəfdaşını deyil, rəqibini, hətta düşmənini görür.

Üçüncüsü, bilavasitə Azərbaycana aid bir məsələdir. Azərbaycandakı 44 günlük müharibə dünya tarixində kifayət qədər ciddi dəyişiklik etdi. Ermənilərin dünyada tanınan “yazıq siması”ndakı maska düşdü, onların nə dərəcədə qorxulu, təhlükəli və qeyri-insani bir xislətə sahib olduqları üzə çıxdı. Əsrlərdir çalışıb yaratdıqları “əzabkeş xalq” obrazı laxladı və dünya ictimaiyyəti qarşısında qəddar, qana susamış və qanmaz bir toplu gördü. Belə bir ciddi məqamda ancaq ABŞ kimi böyük bir havadar - əsrlərdir maskasını qoruya bilmiş daha təcrübəli biri arxa çıxmalıydı. Əgər 44 günlük müharibə olmasaydı və Dağlıq Qarabağ münaqişəsi Qordi düyünü kimi kəsilməsəydi, ABŞ prezidentləri hələ uzun illər “soyqırımı” kəlməsini beşinci tuz kimi çıxartmazdı. Məhz beçinci tuz!

Beləliklə, Co Baydenin “qondarma soyqırımı bəyanatı” əslində ABŞ-ın uzun illər saxladığı “sirri”, mirası idi. Burada söhbət həm özünün qanlı əllərinin heç cür təmizlənməməsindən, “demokratiya beşiyinin” əslində boş olduğundan, liderlik sevdasının, Hantinqtonun ifadəsi ilə desək, “qeyri-bizləri” məhv etmək xəstəliyi olduğundan gedir. Belə bir nəhəng sirrin üzərinə işıq salan isə Azərbaycanın 44 günlük müharibənin sonunda qazandığı qələbə oldu. Bu qələbə Azərbaycanın qardaşı Türkiyənin əleyhinə atılan bir addımlarla cavablandırılır. Ancaq qardaşlığın və Haqqın daha güclü olması da danılmaz bir faktdır.

Co Baydenin yanlış bəyanatı isə tarixi səhvdir.

***Könül BÜNYADZADƏ,***
***AMEA-nın müxbir üzvü***

# Erməni terrorçuluğu və millətçiliyi bəşəriyyətə ləkədir

Tarixi faktlar sübut edir ki, erməni millətçiləri bədnam “dənizdən-dənizə” xülyasını həyata keçirmək üçün türklərə və azərbaycanlılara qarşı daim soyqırımı cinayətləri törətmişdilər. Türk millətini Yer üzündən silmək prinsipi ilə yaşayan faşizm xislətli şovinistlər bu yolda ən iyrənc metodlardan istifadə etmiş, bəşər tarixində görünməmiş faciələrə rəvac vermişdilər.

## On minlərlə azərbaycanlı soyqırımına məruz qalıb

XIX əsrin ikinci yarısından başlayaraq Türkiyədə qırğınlar törədərək çoxsaylı insanı qətlə yetirən ermənilər XX əsrin əvvəllərindən etibarən Bakıda, Şuşada, İrəvan və Naxçıvan mahallarında, Qarabağda, Borçalıda, Qazaxda, Zəngəzurda, Gəncədə, Qubada, Tiflisdə və başqa yerlərdə on minlərlə azərbaycanlını kütləvi şəkildə qətlə yetiriblər. Bu amansız siyasət nəticəsində 1905-1907-ci illərdə, 1918-1920-ci illərdə, 1948-1953-cü illərdə və 1988-1994-cü illərdə Azərbaycan xalqının başına olmazın müsibətlər gətirərək ard-arda soyqırımı törədiblər.

Bütün bu dəhşətli hadisələr tarixə vəhşiliklər, vandalizm, terrorçuluq kimi yazılıb. Onlar daim xarakterlərindəki hiyləgərlik, riyakarlıq, namərdlik, zalımlıq kimi insanlığa yaraşmayan xüsusiyyətlərə xas olaraq günahsız insanları hədəf seçib, güclərini qocaların, qadınların, uşaqların üzərində sınamaqla öyünüblər.

Erməni vandallarının ötən ilin 27 sentyabrında da mülki əhalimizə qarşı həyata keçirdiyi növbəti təxribatlar bu mənfur ideologiyanın davamı idi. Yenə də silahsız insanları hədəf seçmişdilər. Elə 44 günlük müharibə dövrü ərəfəsində də şanlı ordumuzla döyüş meydanında üzüzə gəlməyə cürət etməyən düşmən Azərbaycanın yaşayış məntəqələrini, mülki obyektləri, xəstəxanaları, məktəb binalarını, uşaq bağçalarını, dövlət qurumlarının inzibati binalarını, təsərrüfat təyinatlı əraziləri ağır artilleriya qurğularından intensiv atəşə tutaraq mülki əhalini hədəfə alırdı. Onlar həm də qadağan olunmuş silahlardan istifadə edirdilər.

Ermənistan bu əməlləri ilə sivil dəyərlərdən kənar, mülki insanlara və azyaşlı uşaqlara qarşı xain hücumlar törədən terrorçu ölkə olduğunu növbəti dəfə təsdiq etdi, faşizm mahiyyətini bir daha sübuta yetirdi. Gəncədə törətdikləri soyqırımı, Bərdədə, Tərtərdə mülki əhalini hədəfə almaları, bütöv ailələri Yer üzündən silmələri, körpə uşaqların, qocaların öldürülməsi ermənilərin nə qədər vandal millət olmasından xəbər verir...

Ermənilərin mənfur üzünü gün kimi ortaya sərən bütün bu faktlar isə nə yüz illər, nə də on illər əvvəl baş verməyib. Faşist xislətlilərin bu insanlıq suçlarının üzərindən heç bir il də keçməyib və bütün dünyanın gözü qarşısında törədilib.

## Tarixin saxtalaşdırılmasına verilən dəstək

Erməni terrorçuluğu və millətçiliyi bütün bəşəriyyətə ləkədir. Amma nə yazıq ki, dünya hələ də heyrətolunacaq bir şəkildə qatil ermənінin qanlı əməllərini görməzdən gəlməyə çalışır. Onların uydurmalarına həqiqət donu geydirməyə, yalanlarının ayaq açıb yeriməsinə şərait yaratmağa çalışırlar. Bir növ erməni terrorunun yenidən baş qaldırmasına zəmin yaradırlar...

Belə olmasaydı, bu gün 1915-ci il hadisələrinə siyasi aspektdən yanaşmalarla qarşılaşmazdıq. ABŞ Prezidenti Co Baydenin saxta “erməni soyqırımı”nın “ildönümü” ilə bağlı açıqlamasında 1915-ci il hadisələrini tarixi-siyasi gerçəkliklərə qətiyyən uyğun gəlməyən məfhum ilə ifadə etməsi bunun bariz nümunəsidir və qəbulolunmazdır. Bu böyük siyasi səhv tarixin saxtalaşdırılmasına verilən dəstək kimi qiymətləndirilir.

1915-ci ildə baş verənlərlə bağlı tarixi faktlar özgə mətləblərdən xəbər verir və erməni uydurmalarının üzərindən xətt çəkir. Onların bir əsr əvvəl əcdadlarının “soyqırımı”na məruz qalmaları ilə bağlı hay-küy saldıqları qondarma iddialarını rədd edir.

## Ermənistan arxivlərin araşdırılmasını istəmir

Türkiyə dəfələrlə Ermənistanı 1915-ci il arxivlərini açmağa və hadisələri araşdırmaq üçün birgə komissiya yaratmağa çağırıb. Lakin Ermənistan Türkiyənin bu təklifinə hələ də cavab verməyib. Çünki 1915-ci ildə baş verənlərin faktlarla ortaya qoyulması erməni saxtakarlığının, iyrəncliyinin sübutu olduğunu bilirlər. Bilirlər ki, əslində o zaman gerçək soyqırımına məruz qalanlar türklər və azərbaycanlılar olublar. Ona görə Ermənistan arxivlərin araşdırılmasını istəmir.

Həmin dövrdə erməni silahlı dəstələri tərəfindən 500 mindən artıq insan kütləvi öldürülüb. Daşnaklar 1918-ci ilin martında Bakıda və Azərbaycanın digər regionlarında kütləvi qırğınlar törədiblər. Erməni faşistlərinin türk millətinə qarşı törətdiyi soyqırımları bu tarixlə də yekunlaşmayıb, daha vəhşi formada davam edib. Azərbaycanlılara qarşı bəşər tarixində bənzərinə rast gəlinməyən Xocalı soyqırımını həyata keçiriblər...

Amma dünya bu qanlı əməllərə, cəmi 30 il əvvəl Xocalıda törədilən soyqırımına hələ də ədalətli qiymət verməyib. Bu isə qərəzliliyin və ikili yanaşmanın bariz nümunəsidir. Bilməyərəkdən, ya da elə bilərəkdən ermənilərin yalançı təbliğatına uyaraq onların çaldığı havaya oynamaqdır.

Bəli, görünən odur ki, erməni millətçiləri və onların daşnak rəhbərləri hər zaman timsah gözyaşları axıdaraq, məzlum cildinə bürünərək həyasızcasına hadisələri saxtalaşdırır və 1915-ci ildə özlərinin “soyqırımı”na məruz qaldıqlarını barbar bağırırlar. Və təəssüf ki, erməni yalanlarına inananlar, onların faşizm əməllərinə göz yumanlar bu gün də tapılır...

Ancaq bütün bu saxta və riyakar oyunların gücü tarixi faktları dəyişdirməyə yetməz. Faktlar isə 1915-ci ildə və digər zamanlarda da ermənilərin türklərə, azərbaycanlılara qarşı soyqırımı siyasəti apardıqlarını təkzibedilməz bir şəkildə sübuta yetirir.

***Yasəmən MUSAYEVA,***
***“Azərbaycan”***

# Keçmiş hərbi xunta Paşinyana qarşı qiyama hazırlaşır

***Əvvəli 1-ci səh.***

İndiki halda söhbət Ermənistan Milli Təhlükəsizlik Xidmətinin keçmiş direktoru, müxalif olan Vətən Partiyasının sədri Artur Vanetsyandan gedir. Siyasətçinin vəkili Lusine Saakyan bildirib ki, Vanetsyan istintaqa cəlb olunub. Onun sözlərinə görə, Vanetsyan Ermənistan İstintaq Komitəsinin Hərbi İstintaq İdarəsinə çağırılıb.

MTX-nin sabiq rəhbəri ermənilərin Şuşada uğradıqları ağır məğlubiyyətlə bağlı ittiham olunur. Bildirilib ki, müharibə zamanı Vanetsyan və başçılıq etdiyi silahlı dəstə Şuşadakı mövqelərini özbaşına tərk edib. Hesab edilir ki, bu yolla seçkilərə qədər Vanetsyan sıradan çıxarılacaq. Bu da Nikol Paşinyan və komandasının qalibiyyət şanslarını daha da artırır.

Bu arada məlum olub ki, seçkilərdən sonra baş nazir vəzifəsinə parlamentin sədri Ararat Mirzoyanın namizədliyinin irəli sürüləcəyi barədə müxalif mediada yayılan məlumatlar əsassız imiş. Ermənistanda parlamentin hakim “Mənim addımım” fraksiyası bəyan edib ki, onlar Nikol Paşinyana alternativ axtarmır. Milli Məclisin spikeri Ararat Mirzoyan da hakim fraksiyanın baş nazir postuna namizədinin məhz Paşinyan olacağını bildirib. Paşinyan istefa verdikdən sonra komandası baş nazir vəzifəsinə yenidən onun namizədliyini verib.

Parlamentdə ikinci böyük fraksiya olan “Çiçəklənən Ermənistan” partiyasını təmsil edən İveta Tonoyan bildirir ki, onun partiya yoldaşları artıq seçki hazırlığına başlayıblar və seçkiqabağı kampaniyanı partiyanın lideri Hagik Tsarukyan şəxsən koordinasiya edir. Tonoyan vurğulayıb ki, “Çiçəklənən Ermənistan” fraksiyasının qəti əmin olduğu proqram var: “Partiya 20 iyun seçkisinə Tsarukyanın başçılıq etdiyi siyahı ilə gedir və partiyanın qələbəsi məhz onun baş nazir olması ilə nəticələnməlidir”.

Müxalif “Maariflənmiş Ermənistan” fraksiyası isə bildirib ki, hələlik heç bir sürpriz olmayacaq və təşkilat baş nazir vəzifəsinə namizəd irəli sürməyəcək. “Azatutyun” radiosu qeyd edir ki, Ermənistanın birinci prezidenti Levon Ter-Petrosyan bu günlərdə məhz bu iki partiyanı Paşinyanı vəzifəsində saxlamaq üçün iqtidarla qanunsuz sövdələşməyə girməkdə ittiham etmişdi. Ter-Petrosyan bəyan etmişdi ki, konstitusiyaya görə Paşinyan vəzifəsindən istefa verdikdən sonra həmin vəzifənin icraçısı kimi qala bilməz.

Bu arada Ermənistan hökuməti seçki kampaniyasına maneçilik törədilməsinə qarşı məsuliyyəti sərtləşdirib. Bununla əlaqədar Cinayət Məcəlləsinə düzəlişlər edilməsi haqqında qanun layihəsi qəbul olunub. Bu qanunvericilik təşəbbüsü ilə hakim “Mənim addımım” fraksiyasından Vaaqn Ovakimyan çıxış edib. O bildirib ki, bundan sonra seçkiyə maneçilik törədilməsinə qarşı cəza daha sərt olacaq: “Yadınızdadırsa, inqilaba qədər seçki vaxtı hansısa qruplar müxalifətin təşviqat kampaniyasına maneçilik törətməyə çalışırdılar. Onlar bunu etsələr də, cəzasız qalırdılar. Yeni normalara görə siyasi baxışlarından asılı olmayaraq, istər müxalifət olsun, istərsə də iqtidar, təşviqat kampaniyasına mane olmaq istəyənlər cinayət məsuliyyətinə cəlb olunacaqlar”.

Qanuna düzəlişdə beləlləri üçün 6 aydan 1 ilədək azadlıqdan məhrumetmə cəzası nəzərdə tutulur. Seçki təşviqatına mane olarkən zorakılıq və ya təhdidə əl atanlar 6 il müddətinə azadlıqdan məhrum edilə bilərlər. Seçicilərin maddi cəhətdən ələ alınması cəhdlərinə görə isə 5 ilədək həbsxana cəzası nəzərdə tutulur.

Hakimiyyət əmindir ki, qanuna düzəlişlər qarşıdan gələn erkən seçkilərə əhəmiyyətli dərəcədə təsir göstərəcək. Müxalifət isə bəyan edir ki, bütün bunlar hakimiyyətin inzibati metodlarla prosesi öz lehinə dəyişdirmək cəhdlərindən başqa bir şey deyil.

***Elçin CƏFƏROV,***
***“Azərbaycan”***

# REGİONLAR

## Düşmənin Gəncəyə vurduğu zərər aradan qaldırılır

**Vətən müharibəsi dövründə hərbi əməliyyatların getdiyi ərazidən uzaqda yerləşən Gəncə şəhərinə, o cümlədən insanların sıx məskunlaşdığı Süleyman Rəhimov, Nəriman Nərimanov, Əli Nəzmi və 20 Yanvar küçələrinə, eləcə də digər ərazilərə edilən raket hücumları cinayətkar erməni dövlətinin iç üzünün və acizliyinin əyani sübutu idi.**

Düşmən hərbi birləşmələri ordumuzun uğurlu əməliyyatlarının qisasını dinc sakinlərdən almağa çalışırdı. Nə qədər ağrı-acılı olsa da, Gəncə sakinləri o dəhşətli günlərə baxmayaraq, heç nədən qorxmadılar, öz mətin duruşları ilə düşmənə meydan oxudular.

Artilleriya hücumları zamanı Gəncədə 3000-dən çox fərdi yaşayış evi və qeyri-yaşayış obyekti ya qismən zədələndi, ya da tamamilə məhv oldu. İctimai yerlər, yaşayış binaları dağıdıldı, nəqliyyat vasitələri və şəxsi əmlaka ciddi ziyan dəydi.

AZƏRTAC-ın əməkdaşı Gəncə şəhərində erməni terroru nəticəsində dağıntılara ən çox məruz qalan ərazilərdə olub, bərpa və təmir-tikinti işləri ilə maraqlanıb, sakinlərlə söhbət edib.

Ermənistan silahlı qüvvələrinin hərbi təcavüzü nəticəsində mülki insanların daşınmaz əmlakına dəymiş ziyanın aradan qaldırılması üzrə işlər bu gün də davam edir. Dövlət Şəhərsalma və Arxitektura Komitəsi tərəfindən icra olunan bərpa və təmir-tikinti işləri yüksək keyfiyyətlə aparılır.

Evi tamamilə dağıdılmış şəhər sakini Abbas Həsənov o dəhşətli günləri belə xatırlayır: "Oktyabrın 4-ü idi. Marketdən alış-veriş edib, evə qayıdırdım. Küçəmizə tərəf dönəndə, xeyli məsafə olsa da, partlayış səsindən az qala qulağım batdı. Qaça-qaça evə tərəf getdim. Evimiz dağılmışdı. Ailəm də dağıntılar altında qalmışdı. Xoşbəxtlikdən ölüm hadisəsi olmadı. O anları hələ də unuda bilmirəm..."

Abbas Həsənov evinin yenidən tikilməsinə görə ölkə rəhbərliyinə minnətdarlığını bildirib. Deyir ki, ziyanın qiymətləndirilməsi və aradan qaldırılması məqsədilə müxtəlif dövlət qurumlarının əməkdaşları və mütəxəssislərdən ibarət işçi qrup tərəfindən evə baxış keçirilib, dəymiş ziyan qeydiyyata alınıb, aktlar tərtib olunub. "Sağ olsun dövlətimiz, bizə qayğı göstərərək köhnə, dağılmış evimizin yerində yenisini tikir. Sevincimizin hədd-hüdudu yoxdur. Çünki həm torpaqlarımız işğaldan azad olundu, həm də evimiz yenidən tikilir", - deyə o əlavə edib.

Hazırda Gəncədə dağıdılmış və ya qəzalı vəziyyətə düşmüş 23 yaşayış evinin tikintisi ilə bağlı iş aparılır. 950-dən çox yaşayış və qeyri-yaşayış obyektində isə təmir-bərpa işləri gedir. Onların da bir qismində işlər artıq yekunlaşıb.

Terror aktı zamanı zərər çəkmiş Gəncə şəhər sakini Lilpar Hüseynov isə həmin ağır günlərdə belə düşməndən qorxmadıqlarını söyləyib. "Partlayış o qədər güclü oldu ki, pəncərələrimiz sındı. Evimizin bir tərəfi qismən dağıldı. Buna baxmayaraq, düşməndən qorxmadıq. Azərbaycan Prezidentinin də dediyim kimi, dəmir yumruq ilə onların başını əzdik".

Hadisədən bir neçə gün sonra Lilpar Hüseynovun da evi dövlət tərəfindən qeydiyyata alınıb. Dövlət başçısının tapşırığı ilə qısa müddətdə təmir-bərpa işlərinə start verilib. "Evimiz indi əvvəlkindən də yaxşı təmir olunur. Bir-iki günə təmir işləri tam yekunlaşacaq. Biz də yeni evimizə yığışacağıq", - deyə o bildirib.

Xatırladaq ki, Vətən müharibəsi dövründə işğalçı Ermənistan Azərbaycanın ikinci böyük şəhəri olan Gəncəni ağır artilleriyadan - "Toçka-U", "Smerç" və "Skad" raketləri ilə atəşə tutub. Düşmənin məqsədli şəkildə şəhərin mərkəzi hissəsində yerləşən çoxmənzilli yaşayış binalarını ağır artilleriyadan atəşə tutması nəticəsində qadınlar və uşaqlar da olmaqla, 30-dək dinc sakin həlak olub, 100-ə yaxın insan isə yaralanıb.

## Naxçıvan Dövlət Universitetinin XV Universiadasının açılışı olub

**Naxçıvan Dövlət Universitetinin İdman Kompleksində XV İdman Universiadasının açılışı olub.**



Universitetin Televiziya, mətbuat və ictimaiyyətlə əlaqələr bölməsindən AZƏRTAC-a bildirilib ki, əvvəlcə ali təhsil ocağının fakültə komandaları Orkestr alətləri və dirijorluq kafedrasının "Nəfəs alətləri" orkestrinin səsləndirdiyi musiqi sədaları altında zala daxil olub. Sonra Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Ali təhsil ocağının rektoru Elbrus İsayev açılış mərasimindəki çıxışında gənc nəslin sağlam böyüməsi və idmana marağının artırılması məqsədilə universitetdə mütəmadi olaraq müxtəlif idman oyunlarının, yarışların təşkil edildiyini bildirib. Qeyd edib ki, "Nəfəs alətləri" orkestrinin idman yarışlarında çıxışı yeniliklərdən biridir.

Universitetdə iki ildən bir universiadanın təşkil edildiyini diqqətə çatdıran Elbrus İsayev vurğulayıb ki, universiada basketbol, voleybol, tennis, stolüstü tennis və digər müxtəlif idman növlərindən ibarət olacaq. Bu il universiadaya yeni təsis edilmiş atıcılıq idman növü də əlavə edilib.

Tədbirdə universitetin Bədən tərbiyəsi və idman ixtisası üzrə II kurs tələbəsi, karate üzrə dünya ikincisi, Avropa çempionatında III olan Aslan İsmayılov yarışda qazandığı uğurlardan bəhs edib, komandalara uğurlar arzulayıb.

Müxtəlif idman növləri üzrə nümunəvi çıxışlar göstərildikdən sonra fakültələrarası basketbol yarışına start verilib.

# İslahatlar Goranboyun potensialını hərəkətə gətirir

**Pandemiya ölkəmizdə digər sahələrdə olduğu kimi, kənd təsərrüfatı istehsalçılarının da əlini işdən soyutmamışdır. Bunu Goranboyun timsalında aydın görmək olar. Rayonun təsərrüfat sahibləri bol məhsul istehsal etmək üçün əllərindən gələni əsirgəmirlər. Bu gün rayonda heyvandarlıq və əkinçilik inkişaf edir.**



Xidmət və infrastruktur sahələri yenilənərək müasir dövrün tələblərinə uyğunlaşır. Mövcud sənaye müəssisələrinin istehsal gücünün artırılması, yeni müəssisələrin işə salınması rayonda iqtisadiyyatın güclənməsinə güclü təkan verir. Sahibkarlığın inkişafı hesabına yeni müəssisələr yaradılır, iş yerləri açılır.

Ölkəmizdə həyata keçirilən irimiqyaslı islahatlar, iqtisadiyyata cəlb olunan investisiyaların həcminin ildən-ilə artması Goranboyun da inkişafını sürətləndirən əsas amillərdəndir. Xüsusilə hər il reallaşdırılan infrastruktur layihələri əhalinin həyat səviyyəsinin yüksəlməsinə səbəb olmuşdur. Regional inkişaf dövlət proqramları çərçivəsində aqrar sahənin inkişafına diqqət, kənd təsərrüfatı məhsulları istehsalçılarına dövlət dəstəyi artmışdır. Təkcə son bir neçə ildə rayonun kənd təsərrüfatı məhsulları istehsalçılarına 2,8 milyon manat subsidiya ödənilmişdir. Özəl sektorda çalışanlara isə Sahibkarlığın İnkişafı Fondu tərəfindən xeyli güzəştli kreditlər verilmişdir. Bunun da nəticəsində təkcə keçən il rayonda 306 yeni iş yeri yaradılmışdır. Ümumilikdə isə son dövr ərzində 16,1 mini daimi olmaqla 35 min 660 yeni iş yeri açılmışdır.

İqtisadiyyatının əsasını kənd təsərrüfatı təşkil edən Goranboy rayonunda hər il bu sahədə yüksək göstəricilərə nail olunur. Son bir ildə rayon üzrə kənd təsərrüfatı məhsullarının istehsalının həcmi 13,8 faiz artmışdır. O cümlədən ötən il 67 min 700 ton taxıl istehsal olunmuş, buğdanın məhsuldarlığı 6,3 faiz artaraq 32,2, arpanınkı 7,6 faiz artımla 31,2 sentnerə yüksəlmişdir.

Rayonda aqrar sahənin inkişafında dövlət başçısının təşəbbüsü ilə yaradılmış "Region Aqro"nun xüsusi payı var. 4,7 min hektarda yaradılmış aqroparkın 2 min hektar sahəsində pivot və meyvə bağları üçün damcılama suvarma sistemləri quraşdırılmış, 11 kilometrlik avtomobil yolu, "Şəmkir Maşın" kanalından 12,1 kilometrlik su kəməri çəkilmiş, 400 min kubmetrlik 2 su, 18 min tonluq taxıl anbarları, toxum-paketləmə zavodu inşa edilmişdir. Bunlardan başqa, Qızılca qəsəbəsində 15 hektar sahədə 4-cü nəsil yeni istixana kompleksi- "Kaskad Aqro" fəaliyyətə başlamış, Muzdurlar kəndində fəaliyyət göstərən 920 başlıq iribuynuzlu südlük və damazlıq heyvandarlıq kompleksinin nəzdində süd məhsullarının emalı müəssisəsi və damazlıq qoyunçuluq təsərrüfatı yaradılmışdır.

Bu gün Goranboyda ənənəvi kənd təsərrüfatı sahələrindən olan pambıqçılıq da inkişaf edir. Rayon icra hakimiyyətinin başçısı Məhərrəm Quliyev deyir ki, strateji məhsul olan pambığın istehsalını genişləndirmək, qarşıya qoyulmuş tapşırıqları yerinə yetirmək üçün bütün imkanlardan istifadə edilir. Bu il rayon üzrə 2582 hektarda pambıq əkini nəzərdə tutulmuşdur. Artıq səpin başa çatmışdır. Rayonda əsasən 3 pambıq qəbulu məntəqəsi fəaliyyət göstərir. Onlar "MKT İK" MMC, "Azərpambıq" MMC və "Goran COTTON" MMC-dir. Həmin məntəqələrdə pambıq qəbulu üçün geniş hazırlıq işlərinə başlanılmışdır.

Hazırda yaz-tarla işlərinin qızğın çağıdır. Xüsusilə taxıl sahələrində iş daha çoxdur. Taxılçılar ziyanvericilərə qarşı mübarizə aparmaqla yanaşı, sahələrə məhsuldarlığa müsbət təsir göstərən gübrələr də verirlər. Hələlik heç bir çətinlik yoxdur. Fermerlər güzəştli qiymətlərlə lazımi qədər gübrə ilə təmin edilmişlər.

Rayonda keçən il ümumilikdə əvvəlki illə müqayisədə 202 hektar çox, yəni 21033 hektar payızlıq taxıl səpini aparılmışdır ki, onun da 8250 hektarı buğda, 11570 hektarı arpa, 1213 hektarı xəsildir. Cari ilin yazlıqlarının səpinində də artım qeydə alınmışdır. Belə ki, bu il 40 hektar sahədə buğda, 24 hektarda arpa, 829 hektarda qarğıdalı, 250 hektarda günəbaxan əkilmişdir.

Goranboyda heyvandarlığın inkişafına da xüsusi önəm verilir. Məhz bunun nəticəsidir ki, cari ilin ötən dövrü ərzində keçən ilin müvafiq dövrü ilə müqayisədə qara malın baş sayı 40,2 minə, inək və camışların sayı 20,5 minə, qoyunların və keçilərin sayı 203,3 minə çatmışdır. Heyvandarlıq məhsulları istehsalının həcmi də artmışdır. Təkcə keçən il diri çəkidə 4974,3 ton ət, 42236,6 ton süd təhvil verilmişdir ki, bu da müvafiq olaraq 1 və 0,3 faiz artım deməkdir.

İqtisadi əhəmiyyətinə görə Azərbaycanda ikinci texniki bitki hesab edilən tütün hələ 70-ci illərdə respublikamızda kənd təsərrüfatının əsas sahələrindən biri hesab olunurdu. Təəssüflər olsun ki, sonralar bu gəlirli sahə də tənəzzülə uğradı. Lakin 2016-cı ildə Prezident İlham Əliyevin təşəbbüsü ilə tütünçülük yenidən dirçəldildi, onun sürətli inkişafına nail olmaq üçün stimullaşdırıcı tədbirlər həyta keçirildi. Fermerlərə güzəştli kreditlər verilməklə yanaşı, yüksək aqrolizinq xidmətlərinin göstərilməsinə başlanıldı. Söz yox ki, bu dəstək goranboyluların da tütünçülüyə marağını artırdı. İndi tütünçülüklə məşğul olan rayonlar sırasında Goranboy xüsusi yer tutur.

Tütün əsasən rayonun Zeyvə, Yenikənd, Şəfəq, Qarbucaq, Todan və Qaraçinar kəndlərində əkilir. Bir neçə il əvvəl cəmi 6 hektarda tütün əkən fermerlər hazırda bu rəqəmi 8 hektara çatdırmışlar. Elə birinci il hər hektardan 32,5 sentner məhsul götürən tütünçülər əkin sahələrini daha məhsuldar tütün sortları ilə daha da genişləndirmişlər. Yalnız keçən il 8 hektar əkin sahələrindən 14,7 ton məhsul götürən rayon sakinləri bu il daha yüksək məhsul əldə etməyi qarşılarına məqsəd qoymuşlar.

Kənd təsərrüfatı ilə yanaşı, rayonun sosial inkişafı da diqqət mərkəzindədir. Son illər istər rayon mərkəzi, istərsə də kənd və qəsəbələrin siması tamamilə dəyişmişdir. Təkcə son bir ildə küçələrə 19700 kvadratmetr asfalt örtüyü salınmışdır. Əhalinin istirahət üçün ən çox üz tutduqları Heydər Əliyev adına Mədəniyyət və İstirahət Parkının ərazisi genişləndirilərək müasir üslubda yenilənmişdir. Parkda əlavə gül kolları əkilmiş, yeni oturacaqlar qoyulmuş, müasir işıq dayaqları quraşdırılmış, 2 bulaq və sanitar qovşağı yaradılmışdır.

Goranboy şəhərində dövlət başçısının müvafiq sərəncamı ilə tikilən beşmərtəbəli 40 mənzilli yaşayış binasında işlər də başa çatmışdır. Həmçinin Mərkəzi Rayon Xəstəxanası üçün tikilən bina istifadəyə verilmişdir. Dəliməmmədli şəhərində ikimərtəbəli 8 mənzilli yaşayış binasının və Goranboy Olimpiya İdman Kompleksində isə işlər davam edir.

Rayonun kənd və qəsəbələrində də abadlıq və quruculuq işləri aparılır. Tapqaraqoyunlu kəndində Şəhidlər Abidəsi Kompleksi yenidən qurulmuş, Qızılca qəsəbəsində isə analoji kompleks inşa edilmişdir. Bundan başqa, Səfikürd kənd mədəniyyət evində təmir işləri aparılmış, Xoylu kəndində yeni park salınmışdır.

Rayonun yol infrastrukturunda da xeyli iş görülmüşdür. Ümumi uzunluğu 40 kilometr olan Goran-Qızılhacılı-Goranboy-Rəhimli-Veyisli-Qazanbulaq-Borsunlu avtomobil yolu yenidən qurularaq istifadəyə verilmiş, Sarov, Yəhərçi-Qazaxlar, Buzluq, Mənəşli və Todan avtomobil yollarına daş-çınqıl örtüyü çəkilmişdir. Hazırda yolların yenidən qurulması davam edir.

*Sabir ƏLİYEV,*
*"Azərbaycan"*



## Abadlıq və yaşıllıq tablosuna bənzəyən şəhər

**44 gün davam edən Vətən müharibəsində ağır məğlubiyətə uğrayan, hər gün sarsıdıcı zərbələr alan düşmən məkrlə cəbhə xəttindən uzaqda yerləşən yaşayış məntəqələrini, kəndləri, şəhərləri hədəfə götürür, ağır hərbi cinayətlər törətməkdən çəkinmirdi. Gəncəyə, Bərdəyə, Xızıya, Xırdalana, Qəbələyə raketlərin atılması ciddi hesab sorulası cinayətlərdir.**

Ölkəmizin ən böyük enerji təminatçısı olan Mingəçevir də Ermənistan silahlı qüvvələrinin strateji hədəfləri sırasında yer alırdı. Amma hava hücumundan müdafiə qüvvələrimiz Mingəçevirə atılan raketlərin çoxunu elə havadaykən zərərsizləşdirirdi. Bəzi raketlər isə təsadüf nəticəsində partlamırdı.

Söz düşmüşkən qeyd edək ki, qazandığımız zəfərdə mingəçevirlilərin də rolu kifayət qədər böyükdür. Müharibəyə könüllü gedən mingəçevirli gənclər döyüşlərdə əsl qəhrəmanlıq nümunəsi göstərir, doğma vətəni sonsuz məhəbbətlə sevdiklərini qanları, canları bahasına sübut edirdilər. Savaşda bu şəhər 50 şəhid verdi. Döyüşlərdə yaralanıb sağlamlığını itirənlərin sayı da az deyil.

Bu gün Mingəçevirdə şəhid ailələri, Vətən müharibəsi qaziləri məhəbbət və ehtiramın ali ünvanına çevrilib. Onlara qayğıkeşlik və diqqət göstərmək, problemlərinin həllinə təxirə salınmadan nail olmaq şəhər rəhbərliyinin fəaliyyətində əsas istiqamətdir.

Qələbə sevincini doya-doya yaşayan Mingəçevirin builki yazı başqa bir yazdır. Yaşıl libasa bürünən, al-əlvan bahar çiçəkləri ilə naxışlanan park və xiyabanların, küçə və prospektlərin, abad yaşayış məhəllələrinin göz oxşayan yaraşığı ilə şəhər sakinlərinin fərəhli baxışları, təbəssümlü çöhrələri arasında qəribə bir ahəngdarlıq duyulur. Zəfər sevincindən güc alan şəhər sakinləri doğma şəhərin hər qarışını cənnətə döndərmək üçün ürəkdən çalışır, min bir həvəslə daş üstə daş qoyub abadlıq yaradır, hər ağacın, hər gülün, hər çiçəyin başına pərvanə kimi dolanaraq canlı gözəllik tablosuna yeni naxışlar vururlar.

Şəhər Yaşıllaşdırma və Sanitar Təmizlik İdarəsi kollektivinin səmərəli fəaliyyətinin real nəticələri hər küçədə, hər məhəllədə aydın hiss olunur. Ana Kürün ikiyə böldüyü şəhər mahir bir rəssamın fırçasıyla çəkilmiş canlı həyat tablosu kimi göz oxşayır. Gecələri çıraqban, gündüzləri al-əlvan şəhər hər kəs üçün cəlbedicidir. Heydər Əliyev parkı, Ulu Öndərin adını daşıyan prospekt, Sahil, A.Qurbani, Dostluq, Nəsimi parkları və nümunəvi yaşayış məhəllələrinin gözəlliyi, abadlığı, təmizliyindən doymaq olmur.

İdarənin rəisi Əli Ağamirovla maraqlı söhbət şəhərin bugünkü gözəl görkəmi ilə bağlı təəssüratımızı daha da zənginləşdirdi. Əli müəllim zəngin həyat təcrübəsini, bütün şüurlu həyatını tikib-qurmağa həsr edib, fəal vətəndaş olaraq ölkə iqtisadiyyatının güclənməsinə sanballı şəxsi töhfə verməyə çalışıb. Bir zamanlar Şəmkir SES-ə rəhbərlik edib. Ulu Öndər Heydər Əliyevlə unudulmaz görüşü də məhz o dövrə - 1979-cu ilə təsadüf edir. İndi Əli müəllimin xeyli yaşı olsa da, yenə gənclik həvəsi ilə çalışır. Sözündə, söhbətində vətən sevgisi aydın duyulur. Bəlkə də qarabağlı olması, Ağdamda doğulub boya-başa çatması, nəhayət, 30 ilin həsrətindən sonra doğma torpaqlara qovuşmaq səadəti öz təsirini göstərir.

- Ağdama qırılmaz tellərlə bağlı olsam da, Qarabağla nəfəs alsam da, Mingəçevir mənim üçün çox doğmadır. Bu şəhərin sakinləri mehriban və istiqanlıdırlar. Bu gün mənə etibar edilən vəzifənin məsuliyyətini və şərəfini yüksək dəyərləndirirəm. Amma bu o demək deyil ki, problemimiz olmur, bütün işlərimiz həmişə rəvan gedir. Götürək su təchizatını. Kür çayı şəhərin ortasından keçsə də, yaxınlıqda böyük su anbarı olsa da, şəhərin park və xiyabanlarının, yaşıllıqlarının suvarılması ilə bağlı uzun illərdən bəri çətinliyimiz vardı. Onu aradan qaldırmaq üçün cari ildən yeni bir layihəyə start verilmişdir. Şəhərə su anbarından gələn ana su xəttindən 5 istiqamətdə su götürüb paylamaq nəzərdə tutulur. Birinci xətt artıq istismara verilmişdir. İndi ikinci xətdə işləyirik. İşlər sona çatdıqdan sonra şəhərdə hər ağacı, hər gül kolunu su ilə normal qaydada təmin etmək mümkün olacaq.

Ə.Ağamirovun söhbətindən öyrənirik ki, şəhərdə yaşıllıqların sahəsi sürətlə genişlənir. Cari ilin birinci rübündə yaşayış məhəllələrinə, park və xiyabanlara minlərlə ağac və bəzək kolları əkilmişdir.

Ölkənin böyük sənaye potensialına malik iri şəhəri olan Mingəçevir eyni zamanda abadlığı, yaraşığı ilə hər kəsi heyran edir. Çünki dövlətin davamlı dəstəyindən güc alan mingəçevirlilər doğma yurdun hər qarışını cənnətə döndərmək üçün çalışmaqdan yorulmurlar.

*Lazım QULİYEV,*
*"Azərbaycan"*

## Pambıq məhsulu üzrə sığorta tarifləri açıqlanıb

**Azərbaycanda pambıq bitkisi 100,3 min hektar ərazidə əkilir.**

Kənd Təsərrüfatı Nazirliyinin yaydığı məlumatda bildilir ki, bunun böyük hissəsi - 90,7 min hektarı Aran regionunun payına düşür.

Ölkənin əsas pambıqçılıq rayonları Saatlı, Sabirabad, Bərdə, Ağcabədi, Biləsuvar, Beyləqan, İmişli, Neftçala və Salyandır.



Bundan başqa, pambıq Goranboy rayonunda (Gəncə-Qazax regionu), Cəlilabad rayonunda (Lənkəran regionu), Füzuli, Ağdam və Tərtər rayonlarında (Yuxarı Qarabağ regionu) və Ağsu rayonunda (Dağlıq Şirvan regionu) əkilir. Ölkə üzrə pambıq sahələrinin orta məhsuldarlığı 33,6 sentner, 1 kiloqram pambığın orta satış qiyməti 65 qəpikdir. Bu hesabla pambıq tarlasında hər 1 hektardan alınan məhsulun ümumi dəyəri təqribən 2200 manat təşkil edir.

Aqrar sığorta qaydalarına əsasən, Azərbaycanda bitkilərin sığorta tarifləri, iqlim və təbiət hadisələrini nəzərə alaraq, ölkənin regionları üzrə fərqlənir.

Belə ki, pambıq məhsulu üzrə sığorta tarifi Aran regionunda 0,95, Yuxarı Qarabağda 1,18, Gəncə-Qazax regionunda 2,91, Lənkəran regionunda 0,79, Yuxarı Şirvan regionunda 1,35 faizdir.

## Qubanın Amsarqışlaq kəndində yeni yol istifadəyə verilib

**Aprelin 30-da Qubanın Amsarqışlaq kəndinin yolu əsaslı şəkildə yenidən qurularaq sakinlərin istifadəsinə verilib. Bununla yanaşı, kənddə yeni istirahət parkının tikintisinə başlanılıb.**

AZƏRTAC xəbər verir ki, yenidən qurulan yerli əhəmiyyətli yol 4-cü texniki dərəcəyə uyğun inşa edilib. Yenidənqurma işləri çərçivəsində yeni yol yatağı salınıb. Yola 6 metr enində yüksək keyfiyyətli asfalt örtüyü döşənib.

Quba-Xaçmaz avtomobil yolundan Amsarqışlaq kəndinə gedən yol bundan öncə torpaq və çınqıl örtüklü olduğundan sözügedən yolda xüsusən payız-qış mövsümündə avtomobillərin hərəkəti xeyli çətinləşirdi. Problemlə bağlı vətəndaşların çoxsaylı müraciətləri nəzərə alınaraq, 3,5 kilometrlik yol əsaslı şəkildə yenidən qurulub.

Yolun açılış mərasimində bildirilib ki, Amsarqışlaq kəndinə yeni avtomobil yolunun çəkilməsi ilə yaşayış məntəqəsində yaşayan mindən çox əhalinin Qubanın rayon mərkəzinə rahat və maneəsiz gediş-gəlişi təmin olunub. Yolun istifadəyə verilməsi yaşayış məntəqəsinin rayon mərkəzi ilə nəqliyyat əlaqəsini yaxşılaşdırmaqla yanaşı, bölgədə kənd təsərrüfatının inkişafında da mühüm rol oynayacaq.

Mərasimdə kənddə tikiləcək yeni istirahət parkının layihəsi də təqdim olunub. Vətən müharibəsi şəhidi Ömər Mustafayevin adını daşıyacaq parkda sakinlərin asudə vaxtlarını keçirmələri üçün hər bir şərait yaradılacaq.

# Bir millət — iki dövlət

## Dünya olduğu kimi

# Möhtəşəm minillik

## Bəylikdən imperiyaya və cümhuriyyətə...




**Tarixçilər müasir Türkiyə dövlətinin yaranmasının başlanma tarixi kimi səlcuqluların Malazgird döyüşündə Bizansa qalib gəldiyi 1071-ci ili qeyd edirlər. Bizans imperiyası ilə Səlcuqlu imperiyası arasında baş tutan bu döyüşdə əldə edilən qalibiyyət Anadolunun qapılarını türklərin üzünə açdı. Böyük Səlcuqlu dövləti hələ parçalanmamışdan əvvəl artıq Anadolu bölgəsi türkləşməyə başlamışdı. Səlcuqlu dövləti parçalandıqdan sonra Anadolu səlcuqlu türk dövləti yaranmışdı.**

Səlcuqlar XI əsrdə Bizans İmperiyasını çökdürən və bu ərazilərdə böyük kök salıb, regionu dünyanın ən böyük mədəni, elmi və siyasi mərkəzlərindən birinə çevirmiş ilk türk sülaləsi olub.

11-12-ci əsrlərdə Anadolu bölgəsinin torpaqlarının çox hissəsi səlcuqların nəzarəti altında idi. Anadolu səlcuqlu dövləti tənəzzül etdiyi zaman isə Anadolu bəylikləri yarandı. Onlardan biri məhz Osmanoğulları bəyliyi idi. Osmanoğulları özlərini Orta Asiyada vaxtilə mövcud olmuş türk dövlətləri ilə yanaşı, Böyük Səlcuqlu imperiyasının, Anadolu səlcuqlu türk dövlətinin davamçısı hesab edirdilər.

6 əsrdən çox mövcud olan Osmanlı dövləti süquta uğramış Anadolu səlcuqlu dövlətinin ərazisində ilk olaraq bəylik kimi yaranmışdı. O, daha sonra böyüyərək dövlətə, hətta imperiyaya çevrildi.

Osmanlı türk imperiyası türklərin tarixi nüfuz dairəsi baxımından ən böyük nailiyyəti olub. 620 ildən çox mövcud olan bu imperiya Aralıq dənizi və Qara dənizi əhatə etməklə, Asiya, Avropa və Afrika qitələrində yüz illər boyu hökm sürüb. Tarixdə belə geniş torpaqlara bu qədər uzun hökmranlıq edən digər imperiyalar Roma imperiyası və Britaniya imperiyası olub. Osmanlı dövləti Afrikada 395 il (1517-1912), Avropada 561 il (1363-1912;1913-1922), Asiyada bütün hakimiyyəti boyu (623 il) qalıb.

Osmanlı türk imperiyasına 36 sultan hökmranlıq edib və 1517-ci ildən etibarən xəlifəlik adı ilə də islam dünyasının dini hökmranlığını öz üzərinə götürüb. İmperiya Sultan Süleyman Qanuninin hakimiyyəti illərində ən qüdrətli dövrünü yaşayıb.

Birinci Dünya müharibəsi başa çatandan sonra məğlub olan Osmanlı imperiyası süquta uğradı.

İşğalçı qüvvələrə qarşı başlayan və Mustafa Kamal Atatürkün rəhbərliyi ilə davam edən Türkiyə İstiqlaliyyət müharibəsi 1922-ci ildə monarxiyanın ləğv edilməsi və 1923-cü ildə Türkiyə Respublikasının əsasının qoyulması ilə nəticələndi. Atatürk Türkiyənin ilk prezidenti olub. 1923-1924-cü illərdə Türkiyə Cümhuriyyəti elan olunub və onun paytaxtı İstanbuldan Ankaraya köçürülüb. 1925-1935-ci illərdə Atatürkün apardığı islahatlar nəticəsində Türkiyədə çox arvadlılıq, Osmanlı imperiyasının nişanəsi olan geyimlər qadağan olunur. Avropa hüquq sisteminə keçid, mütləq ailə nikahının bağlanması, Qreqorian təqvimi, bazar gününün istirahət günü elan olunması tətbiq olunur. Bütün vətəndaşlar soyad daşımağa başlayır.

Türkiyə dünyanın həm Avropa, həm də Asiya qitəsində yerləşən ölkəsidir. Onun torpağının 97 faizi Asiya, 3 faizi Avropanın payına düşür.

# Tarixin gərdişini dəyişən fəth

**Avropa ilə Asiya qitələrinin kəsişdiyi nöqtədə yerləşən İstanbulun fəthi Türkiyənin ən əhəmiyyətli tarixi hadisələrindəndir. Dünyanın ən qədim şəhərlərindən biri olan İstanbul 330-395-ci illərdə Roma İmperiyasının, 395-1204 və 1261-1453-cü illərdə Bizans İmperiyasının paytaxtı olub.**



Şəhər 1453-ün may ayında Osmanlı hökmdarı II Mehmedin rəhbərliyi ilə türklər tərəfindən ələ keçirilib. Əvvəl Bizantion, daha sonra bizanslılar tərəfindən adı Konstantinopol olaraq dəyişdirilən şəhərə İstanbul adı 1930-cu ildə verilib. Əksər qərb ölkələrində şəhərin adının Konstantinopol adlandırılmasına son qoymaq üçün Türkiyə Böyük Millət Məclisi onun adının dəyişdirilməsinə qərar verib. İstanbul 1453-1922-ci illərdə Osmanlı İmperiyasının paytaxtı olub. İstanbulun fəthində Rumeli hasarının mühüm rolu olub. Bu hasar Konstantinopolun dənizlə olan bağını tamamilə kəsmək və mühasirə vaxtı şəhərə dənizdən kömək gəlməsinin qarşısını almaq üçün II Mehmedin göstərişi ilə tikilib. Rumeli hasarı İstanbulun fəthinə hazırlıq məqsədilə inanılmaz dərəcədə qısa - 4 ay müddətində tikilib. Osmanlı sultanlarının 400 il (1465-1856) iqamətgahı olmuş Topqapı saray kompleksi də İstanbulda yerləşir. Hazırda muzey kimi fəaliyyət göstərən sarayın inşasına 1459-cu ildə Konstantinopolu işğal etmiş Sultan II Mehmedin əmri ilə başlanılıb. Sultanların əvvəlki iqamətgahından fərqləndirilməsi üçün saray "Yeni Saray" adlandırılıb. Saray XIX əsrdən etibarən Topqapı adlandırılmağa başlanılıb. İstanbul şəhərinin əsas simvollarından biri də dünyanın ən qədim qüllələrindən hesab olunan Qalata qülləsidir. Qüllə Bizans imperiyasının imperatoru Anastasiusun göstərişi ilə 528-ci ildə inşa olunmağa başlayıb. 1204-cü ildə IV xaç yürüşü zamanı ciddi dağıntılara məruz qalan qüllə 1348-ci ildə ikinci dəfə inşa olunub. Qalata qülləsi həmin dövrdə Konstantinopol şəhərinin ən hündür binası hesab olunurdu.

Şəhər kimi təxminən 3 min, paytaxt kimi isə 1600 ilə qədər yaşı olan İstanbul dünyadakı nadir məskunlaşma yerlərindən biridir. İstanbulun ilk məskunlaşma tarixinin 300 min il yaşı var.

Hazırda İstanbulun əhalisinin sayı 15 milyondur. Şəhərin əhalisinin sayı dünyanın bir çox ölkəsindən çoxdur. İstanbul şəhəri əhalisinin sayına görə Avropada birinci, dünyada isə altıncı sırada yer alır.

Türkiyənin yeddi təpə üzərində inşa edilən və ən böyük şəhəri olan İstanbul ölkənin həm də ən çox rayona sahib olan şəhəridir. Onun tam olaraq 39 rayonu var.

# Dünyanın ən qədim ibadətgahı



Türkiyənin qədim tarixə malik olduğunu göstərən abidələrdən biri Göbəklitəpədir. Türkiyənin cənub-şərqində yerləşən bu abidə nəinki Türkiyə, hətta bütün dünya üçün vacib kəşflərdəndir. Eramızdan əvvəl 10 mininci illərə aid olan Göbəkli təpənin tarixdə ən böyük ibadətgah və inancın ilk yeri olduğu düşünülür.

Bu məbəd bəşəriyyət tarixinin anlayışını və məlumatını dəyişdirən bir kəşf olub.

Arxeoloqlar Misir Piramidalarından 7500 yaş daha qədim olan Göbəklitəpə haqqında danışarkən "Bura o qədər fövqəladədir ki, insan şüuru onu anlamaqda çətinlik çəkir" deyirlər. Buranı tarixin ən qədim məbədi, "dinin doğulduğu yer" və hətta "cənnət bağı" adlandıran arxeoloqlar da var.

Göbəklitəpənin ətəklərində həm də ən qədim buğda növü aşkarlanıb. Bu buğdanın yabanı olduğu bildirilir.

Tədqiqatçıların fikrincə, Göbəklitəpə aparılan arxeoloji tədqiqatlar zamanı ortaya çıxarılan dəyirmana bənzər qablar da nəzərə alınarsa, buraya toplaşan insanların çörək və ona bənzər qidalardan istifadə etdiyi, onları ilk olaraq çöl buğda ilə hazırladıqlarını söyləmək mümkündür.

# Planetin ən böyük məscidi



Dünyanın ən böyük məscidi İstanbulda son illər ərzində inşa edilərək istifadəyə verilmiş Böyük Çamlıca məscididir. Bu məsciddə eyni anda 63 min insan ibadət edə bilir.

Türkiyə həm də dünyada məscid sayı çox olan ölkələrdəndir. Bir neçə il əvvəl açıqlanmış məlumatlarda Türkiyənin bu sıralamada yeddinci yerdə olduğu bildirilmişdi. Hesablamalara görə, dünyadakı məscidlərin təxminən 2,3 faizi bu ölkənin payına düşür.

Türkiyənin rəsmi məlumatlarına görə, ölkədə 84 mindən çox məscid var. Bu ölkədə ən çox məscid İstanbuldadır - 3499. Konyada 3223, Ankarada 3152, Samsunda isə 2738 məscid var.

# Dünya ilkləri...



**Məlumatlara görə, xristianlara "xristian" adı ilk olaraq Türkiyədə verilib. Dünyadakı ilk xristian kilsəsinin də Türkiyədə olduğu artıq qəbul edilib.**

Türkiyənin Antakya şəhərindəki Saint Pierre Kilisesi İsa peyğəmbərin yolunu davam etdirən xristianların bir araya gəlmək üçün toplaşdıqları bir mağara olub.

Vatikan Saint Pierre Kilsəsini 1960-cı illərdə xristianlar üçün "Müqəddəs Həcc Yeri" olaraq elan edib. Həmin vaxtdan etibarən hər il dünyanın müxtəlif yerlərindən çox sayda xristian Antakyaya gəlir. Saint Pierre kilsəsinə ziyarətə gələn xristianların əksəriyyəti Katolik məzhəbindəndir. Burada həcc dövrü hər il iyunun 29-da başlayır.

Dağın oyulması ilə inşa edilən kilsənin miladdan sonrakı ilk illərdə qurulduğu düşünülür. Kilsənin dərinliyi 13 metr, eni 9,5 metr, hündürlüyü 7 metrdir.

Antakya həm də dünyanın ilk şəhərlərindəndir. Bu şəhər zəlzələ nəticəsində 7 dəfə dağılsa da, yenidən qurulub.

### *Necə hazırlandığı dünya elmi üçün hələ də qaranlıq qalan xəritələr*

XV-XVI əsrlərdə yaşamış, əslən Osmanlı türkü olan məşhur dənizçi-coğrafiyaşünas Piri Rəis dünya üçün olduqca əhəmiyyətli olan iki xəritə hazırlayıb.

Piri Rəisin birinci xəritəsində İslandiyanın yuxarısı korlanmış olsa da, Atlantik okeanı, Antil adaları, Amerikanın həmin dövrdə məlum hissələri aydın görünür. İkinci xəritə ada və sahillərin birinci xəritəyə nisbətən daha dəqiq çəkilməsi ilə seçilir.

Piri Rəisin tərtib etdiyi Amerikanın xəritəsi 1929-cu ildə ortaya çıxıb, 1935-ci ildə Atatürkün əmri ilə dövlət mətbəəsində çap edilib. Bu xəritə orta əsrdə tərtib olunmuş xəritələrdəki bütün nöqsanlardan uzaqdır. O, Şimali Amerikanın dünya miqyasında ilk tərtib olunmuş xəritəsi sayılır. Xəritədə Antarktida materikinin öz əksini tapması xüsusi əhəmiyyət kəsb edir. Onun çəkdiyi xəritədə Antarktida dağlarının son dərəcə dəqiqliklə göstərilməsi maraqlı faktlardan biridir. Belə ki, bu dağlar ancaq 1952-ci ildə səsötürücü alətlərdən istifadə edilərək müəyyən edilib. Buz altında olan bu dağların və materikin sahil xətlərinin düzgün müəyyən edilən xəritəsinin tərtib edilməsində Piri Rəisin nəyə əsaslandığı bu gün də elmə qaranlıq qalmaqdadır.

Hazırda səmadan çəkilən şəkillərlə xəritə arasında son dərəcə oxşarlığın olması müəyyən edilib. Hətta bəzi tədqiqatçılar xəritənin səmadan çəkilən fotoşəkillərə əsaslandığı nəticəsinə gəliblər.

Peyklərdən alınan fotoşəkillərə əsasən Qrenlandiyanın üç adadan ibarət olması müəyyən edilib. Piri Rəisin xəritəsində da Qrenlandiyanın üç adadan ibarət olması XVI əsrin birinci yarısında öz əksini tapıb. Möcüzələrlə dolu olan xəritələrin tərtibatında Piri Rəisin nələrə əsaslandığı, nələrdən istifadə etdiyi dünya alimlərini bir çox sualla qarşı-qarşıya qoyub. Tədqiqatçılar 1960-cı ildə Pirinin tərtib etdiyi xəritə haqqında "Piri Rəisin tərtib etdiyi iki xəritə üzərində araşdırmaların dövrümüzdə mövcud olan dəniz xəritələrindən heç nə ilə fərqlənməməsi insanı heyrətə gətirir" fikrini söyləyiblər.

Araşdırmalar Xristofor Kolumbun Amerikanın varlığını da türk dənizçilərindən öyrəndiyini göstərir. Osmanlı türklərindən yardım istəyən Kolumb Piri Rəisin əmisi Kamal Rəisdən müsbət cavab alaraq onun xidmətçisi Rodriqonu özünə köməkçi götürmüşdür. Rodriqo müəyyən səbəblərdən adını dəyişdirmiş türk dənizçisi idi. Kolumb səyahətə çıxarkən ilk dəfə qurunu görən də Rodriqo olmuşdur. Xristofor Kolumb isə Hindistana çatdıqlarını güman etmişdir.

***İlhamə İSABALAYEVA, "Azərbaycan"***

# Sağlıq olsun

# Qədim şəfa mədəniyyəti

**Osmanlı tibbi, qədim tibbi biliklərin insanlığa daşınması və osmanlı həkimlərinin öz təcrübələri əsasında formalaşdırdıqları möhtəşəm şəfa üsulu həm də bir mədəniyyətdir. Osmanlı həkimləri hər zaman elmə uyğun hərəkət edir, müşahidə və təcrübələrdən bəhrələnirdilər. Günlərlə hava şəraitini müşahidə edir, ətraf mühitin insan orqanizminə təsirini sınayırdılar. Osmanlı tibbinin əsas qayəsi xəstəlikləri müalicə etməklə yanaşı, sağlıqlı həyat düzəni yaratmaqdan ibarət idi.**



Onlar insan bədəninin kainatı meydana gətirən elementlərdən ibarət olduğunu düşünür, bunların da torpaq, hava, od və su ilə yanaşı, istilik, soyuqluq, quruluq və rütubət olduğunu qəbul edirdilər. Müalicə üsulları isə əsasən "hılt" adlandırdıqları bədəndəki mayelərə - qan, safra, sevda (öd kisəsində maye), bəlğəmə görə idi.

### *4 ünsürün möcüzəsi*

"Hılt" qidaların mədədə həzm edilməsi ilə meydana gəlir və damarlara töküləək qanla bərabər bədənin hər yerinə yayılır. Buna görə də həkimlər düşünürdülər ki, "hılt"ların çoxluğu və ya əckikliyi o bədənə xəstəlik gətirir: Qan bədəni qidalandıran ən vacib elementdir, təbiəti isti və nəmlidir. Adətən ət və qaynanmış yumurta yeyildiyində dərhal yaranır. Safra, qaraciyər tərəfindən hazırlanıb öd kisəsində toplanan mayedir. Safranın təbiəti isti və qurudur, sarı rəngdədir, şirin və yağlı qidalar yeyildiyində yaranır. Sevda dalaqda yaranır və qana axır. Təbiəti soyuq və qurudur, qara rəngdədir, duzlu və ləzzətli qidalar (duzlu pendir, quru balıq, sarımsaq kimi) yeyildiyində yaranır. Bəlğəm isə beyində hazırlanan ağ mayedir. Təbiəti soyuq və nəmlidir, ağ rəngdədir, nəmli və təzə qidalar (balıq, qatıq, təzə meyvələr kimi) yeyildiyində yaranır...

Osmanlı həkimləri bu xüsusiyyətlərə görə insanları 4 tipə ayırıb müalicəni də ona görə təyin edirdilər. Həkimlərin fikrincə, bahar qanın, yaj safranın, payız sevdanın, qış bəlğəmin hərəkətə keçməsinə səbəb olur. Onlar sağlamlığın yalnız bu dörd mayenin tarazlığını tapmaqla mümkün olduğuna, xəstəliklərin bu mayelərin aralarındakı tarazlığın pozulmasından qaynaqlandığına inanırdılar.

### *Bu gecə buxur yandırmaq bir adət idi*

Osmanlıda şəxsdə sağlıq problemi ortaya çıxan zaman öncə xəstənin nəbzini yoxlayırdılar. Nəbz yoxlaması, bir həkim üçün ən əhəmiyyətli üsul idi. Bununla o, bir çox məlumata malik olurdu: tutaq ki, qadının hamilə olub olmadığı, hətta uşağın cinsiyyətini belə təyin edirdilər. Xəstəyə bir sıra suallar verilir, sağlıq vəziyyəti müəyyənləşdirilir və buna uyğun müalicə seçilirdi.

Bitkilərlə müalicə aparılırdı: məcun, şərbət, müxtəlif qarışımlar, gözəl qoxular - buxurlar, tüstülər, hidrolatlar Osmanlı şəfaxanalarında istifadə olunmuşdur. Səlcuqlu və Osmanlıda cümə axşamını cüməyə bağlayan gecə buxur yandırmaq bir adət idi. Hətta o dövrlərdə yaşanan pandemiyalar zamanında havanı təmizləmək üçün antiseptik qoxular yandırılırdı.

Digər müalicə yöntəmləri olaraq qanalma, hicama, zəli terapiyası, banka qoymaq, musiqi ilə müalicə kimi metodlar çox önəmliydi.

Osmanlı həkimləri üçün sağlıqlı bir yaşamın təməllərini təşkil edən ünsürlər yeməkiçmək, hava, hərəkət, təmizlənmə, yuxu, duyğu və düşüncələr idi. Buna görə də Osmanlıda yemək-içmək, yatmaq, hamamlanmaq, hətta evlərin inşa ediləcəyi yer belə həkimlərin uyğun gördüyü formada olurdu. Məsələn, dəniz kənarında yaşamağın insan təbiəti üçün uyğun olmadığı, ən sağlıqlı insanın dağlıq ərazidə yaşadığı bildirilirdi.

**Təbib:**

# Məşhur cərrah SABUNÇUOĞLU ŞƏRƏFƏDDİN

**Osmanlı tibbi elmi cəhətdən Sultan Mehmet Fatehin dövründə xüsusilə inkişaf etmiş, məşhur həkimlər də həmin dövrdə yaşamışdır. O zaman Osmanlı tibb tarixinə adını qızıl hərflərlə yazdıran həkimlərdən biri də Sabunçuoğlu Şərəfəddin olmuşdu.**



Amasiyada doğulan Şərəfəddinin babası Sabunçuoğlu Hacı İlyas Çələbi və atası Əli Çələbi də həkim idi və illərlə baş həkim olaraq çalışmışdılar. Amasiya Darüşşəfasında 11 illik təhsildən sonra 17 yaşında həkimliyə başlayan Şərəfəddin həm xəstələrin müalicəsi ilə maraqlanır, həm də tibbi biliyini artırmaq üçün oxumağa, araşdırmağa davam edirdi.

Amasiyada o dövrdə tez-tez ilan zəhərlənməsi baş verirdi və bunun müalicəsi üçün dərmanı da Sabunçuoğlu hazırlamışdı. Deyilənlərə görə, o, zərdab üzərində çalışarkən onu əvvəlcə toyuq və xoruzlar üstündə sınaqdan keçirmişdir. Nəticəsi yaxşı olduqdan sonra isə öz üzərində sınaqdan keçirməyə qərar vermişdir. Bunun üçün çox zəhərli bir ilan gətizdirmiş və sol əlinin baş barmağını dişlətmişdir. Özünü zəhərlədikdən sonra isə zərdabı özünə vurmuşdur. Və nəticədə nə barmağı şişmiş, nə də zəhərlənmişdir.

Şərəfəddin həkim müalicə zamanı musiqi alətlərindən də istifadə edib, musiqinin psixoloji narahatlıqlar üzərindəki müalicəedici təsirini pasiyentlərinə ustalıqla tətbiq edib.

Həmin dövrdə Sabunçuoğlunu digər həkimlərdən fərqləndirən əsas xüsusiyyəti isə cərrahlıqla maraqlanması idi. O dövrdə həkimlər cərrahlığa o qədər də maraq göstərmirdilər. Səbəbi isə cərrahi müdaxilədə həyati təhlükənin çox yüksək olması idi. Əməliyyatları asanlaşdıracaq tibbi alətlər, texniki vasitələr də çox az idi. Sabunçuoğlu isə cərrahi vasitələrin çoxunu əvvəlcə heyvanlar üzərində təcrübədən keçirir və uğurlu nəticəni görəndən sonra insanlara tətbiq edirdi. O, cərrahi əməliyyatlarının bəzilərində öz düzəltdiyi yüzdən çox tibbi alətdən istifadə edirdi. Və həmin alətləri və əməliyyat anlarını gələcək nəsillərə ötürmək üçün kitablarında rəngli illüstrasiyalar çəkdirirdi.

Sabunçuoğlunun tərcümə etdiyi və yazdığı cərrahi müdaxilələrdən, qadın xəstəliklərindən tutmuş intoksikasiya müalicəsi üsullarına, qırıq və çıxıq müalicələrinə qədər bir çox mövzuda illüstrasiyalı hekayələrlə zənginləşdirilmiş və misilsiz bir qaynağa çevrilmiş 3 kitabı var: "Cerrahiyyetü'l Haniyye", "Akrabadin Tərcüməsi", "Müccerrebnamə".

Sabuncuoğlunun 85 yaşındaykən hazırladığı "Mücerrebnamə" əsəri isə türk təbabəti tarixində bir həkim tərəfindən yazılmış, eyni zamanda həkimin ixtira etdiyi dərmanların təsvir edildiyi və müalicə üsullarından bəhs olunan ilk monoqrafiyadır .

Amasiyada Sabunçuoğlu Şərəfəddinin həkim işlədiyi "Bimarhane", indi "Sabunçuoğlu Tibb və Cərrahiyyə Tarixi muzeyi" kimi fəaliyyət göstərir və burada qədim tibbə aid çox dəyərli eksponatlar sərgilənir.

**Yaşam**

# Öncə sağ, sonra sol üzü üstə yatın...



Osmanlı həkimləri yuxunun insan orqanizminin sağlamlığında əhəmiyyətli rolu olduğunu düşünürdülər. Buna görə də yatmazdan əvvəl yemək yeməyi məsləhət görmürdülər. Yatarkən öncə sağ tərəfə, bir müddət sonra isə sol tərəfə dönüb yatmaq lazım olduğunu tövsiyə edirdilər. Söyləyirdilər ki, əvvəlcə sağ böyür üstdə yatacaqsan ki, mədəndə qalanlar alt tərəfinə toplanacaq, oradakı qidalar həzm olunacaq. Sonra sol tərəfinə dönəcəksən ki, qaraciyərin mədənin üzərini bağlayaraq isti saxlasın. Vurğulanırdı ki, bədənin daxili istiliyi 35 dərəcə olmalıdır və yatarkən də bu istiliyi qorumaq mütləqdir. Osmanlı həkimləri unutqanlığı olan insanlara isə üzü üstə yatmalarını tövsiyə edirdilər. Belə olarsa, qanın beyinə daha çox gedərək dövrana müsbət təsir göstərdiyini bildirirdilər.

**Türkəçarə:**

# Sultan anasını sağaldan şəfa



Əsrlərdən bugünümüzə qədər Türkiyədə sevilərək istifadə edilən Osmanlı məcunu əsl təbii dərmandır. Xəstəliklərə qarşı inanılmaz faydalı olan bu təbii dərmanın yaranma tarixi də çox maraqlıdır. Belə ki, Yavuz Sultan Səlimin həyat yoldaşı Ayşə Hafsa Sultanın xəstələnməsinə görə Qanuni Sultan Süleyman anası üçün həkimlərin başı olan Mərkəz Əfəndidən dərman istəyir. Mərkəz Əfəndi çörəkotu, xardal toxumu, hind qozu, Hindistan çiçəyi, mixək, istiot, limon duzu, meyan balı, portağal qabığı, zəfəran, darçın kimi bitki və ədviyyatlara su qarışdıraraq qaynadır. Əldə edilən qarışım dərman kimi Hafsa Sultana verilir və o sağalır. Bundan sonra Sultan Süleyman bu qarışımın xalqa paylanmasını istəyir.

Qırx növ ədviyyat və bitki qarışımından hazırlanan Osmanlı məcunu bir çox dərdə dəvadır. Bağırsaqların daha yaxşı çalışmasına rəvac verir. Bədəni qüvvətləndirir, immuniteti ehtiyacı olan mineral və vitaminlərlə təmin edir. Qandakı insulin dirəncinə təbii şəkər verir. Boğazdakı infeksiya və virusları yox edir. Sinir hüceyrələrini gücləndirərək stres ve depressiya riskini azaldır.

**Xələflər:**

# Taclı bəlaya türk həkimlərindən öldürücü zərbə

**XXI əsrdə dünyada insanların həyatını təhlükəyə atan, milyonlarla insanın həyatına son qoyan COVID-19 pandemiyasına qarşı istifadə olunan vaksinlərdən biri də türkiyəli həkimlər tərəfindən tapılıb.**



Almaniyanın Maynz şəhərində çalışan türk əsilli həkimlər, professor Uğur Şahin və onun xanımı doktor Özləm Türecinin həmtəsisçiləri olduğu "BioNTech" firmasının yeni tip koronavirusa (COVID-19) qarşı hazırladıqları potensial vaksin hazırda dünyanın əksər ölkələrində tətbiq olunur. Şirkətin ortağı olan ABŞ-ın əczaçılıq nəhəngi "Pfizer"in baş direktoru Albert Burla türk həkimlərin kəşfini son 100 ildə "tibbin ən böyük nailiyyəti" adlandırıb.

U.Şahin və Ö.Türeci koronavirus vaksinin hazırlanmasında istifadə etdikləri mRNA texnologiyası üzərində 25 ildir ki, çalışdıqlarını deyiblər.

Eyni zamanda U.Sahin və Ö.Türeci öz həyatlarını onkologiya və yoluxucu xəstəliklərin öyrənilməsinə və müalicəsinə həsr ediblər. Onlar xərçəngin müalicəsi üçün immunoterapiyanın fərdi metodlarının hazırlanmasına illərlə vaxt ayırıblar.

Qeyd edək ki, Uğur Şahin Türkiyədə doğulub və dörd yaşında olarkən atasının işi ilə əlaqədar ailəsi ilə birlikdə Almaniyanın Köln şəhərinə köçüb. Özlem Türeci isə Türkiyənin İstanbul şəhərindən Almaniyaya köçən həkimin qızıdır. Onlar universitetdə tanış olaraq evləniblər və "BioNTech" şirkətinin əsasını qoyublar.

**Səhiyyə ocağı:**

# İmperatorluğun ilk xəstəxanası

**Osmanlı İmperatorluğu dövründə Səlcuqlu dövlətindən miras qalan tibb müəssisələri daha da inkişaf etdirilərək fəaliyyət göstərirdi.**



Hətta o dövrdə Kayseridə yaradılan Gevser Nəsibə Xəstəxanası və Qıyasəddin Keyhüsrev Tibb Məktəbi Osmanlı İmperiyasının son dövrünə qədər fəaliyyət göstərmişdir. Eyni zamanda yeni şəfaxanalar da yaradılırdı və bu tibb müəssisələri səhiyyə xidmətləri göstərməklə yanaşı, tibb məktəbi kimi də fəaliyyət göstərir və burada yeni həkimlər yetişdirilirdi.

İmperatorluğun ilk xəstəxanası isə Yıldırım Bəyazit tərəfindən Bursada tikdirilmiş "Yıldırım Darüşşifa" idi (tikilmə tarixi dəqiq bilinmir). Sultan bu xəstəxanada bir baş həkim, üç həkim, iki şərbətçi, iki əczaçı, bir aşpaz və bir çörəkçinin olmasını şərt qoymuşdu.

Darüşşəfada xəstəliklərin ümumi müalicəsi ilə yanaşı, bəzi cərrahi əməliyyatlar da həyata keçirilirdi. Bunlar əsasən qırıq-çıxıqla, bəzi xarici yaralarla bağlı idi. Eyni zamanda burada sinir xəstəliklərinin də müalicəsi aparılırdı.

Bu xəstəxana pulsuz fəaliyyət göstərirdi, həmçinin xəstələrin qidalanma ehtiyaclarını ödəmək üçün 260 dirhəm gümüş, əlavə olaraq da buğda və düyünün verilməsi də qərara alınmışdır.

***Yasəmən MUSAYEVA, "Azərbaycan"***

# Azərbaycanın Van Basteni “İmarət” həsrətindədir

Hər bir ölkənin həyatında idmanın çox önəmli rolu var. Məhz buna görə Azərbaycanda idmana böyük diqqət və qayğı göstərilir. İdman mütəxəssisləri çox gözəl şəraitdə işləyirlər, idmançıların təlim-məşq toplanışları, beynəlxalq yarışlarda iştirakı üçün bütün şərait yaradılıb.



Digər sahələrdə olduğu kimi, idmanda da konseptual şəkildə ardıcıl işlər görülür, veteranlara diqqət və qayğı göstərilir, onlar dövlət tərəfindən mükafatlandırılırlar. “Əməkdar məşqçı” fəxri adına layiq görülmüş futbol veteranı, SSRİ idman ustası, UEFA lisenziyası üzrə B kateqoriyalı məşqçi, dördqat ölkə çempionu Cavanşir Novruzov da belə veteranlardandır.

O, 1959-cu ildə Ağdamda anadan olub. Uşaqlıqdan futbola böyük həvəs göstərib. O, həmin illəri belə xatırlayır: “Ağdamda həmişə idmana, xüsusilə də futbola böyük maraq olub. O vaxtlar məhəllə futbolu inkişaf edirdi. Hər məhəllənin də öz komandası var idi. Oyunların birindən sonra tanımadığım şəxs məni İmarətdə yerləşən futbol məktəbinə dəvət etdi. Bu, məşqçi Adil Nadirov idi... Və mən ciddi, peşəkar məşqlərə qatıldım. Digər məşqçim isə Eldar Bağırov idi. Allah onlara rəhmət eləsin”.

Peşəkar karyerası dövründə Cavanşir Novruzov Xankəndinin “Qarabağ”, Mingəçevirin “Avtomobilçi”, Bakının “Neftçi”, Gəncənin “Kəpəz”, Naxçıvanın “Araz” və nəhayət, 1988-ci ildən Ağdamın “Qarabağ” klubunda hücumçu ampluasında texnikalı oyunu, əzmkar və məhsuldar çıxışı ilə mütəxəssislərin, komanda yoldaşlarının və çoxsaylı azarkeşlərin rəğbətini qazanıb. Hətta vaxtilə keçmiş SSRİ-nin ən məşhur hakimlərindən biri, FİFA referisi Valeri Baskakov onun oyununu izlədikdən sonra Cavanşir Novruzovu Azərbaycanın Van Basteni adlandırıb...

Doğma komandanın heyətində 4 dəfə ölkə çempionluğunu qazanan futbolçu 2001-ci ildən “Qarabağ”da köməkşi-məşqçi, baş məşqçi, “Qəbələ”də müxtəlif vəzifələrdə fəaliyyət göstərib.

Ağdam işğal olunduqdan sonra komanda bir müddət Mingəçevirdə, sonra isə Sumqayıtda məskunlaşmışdı. Həmin zaman klub bir cox çətinliklərlə üzləşmişdi. Lakin mərd, qeyrətli, vətənpərvər insanların köməyi ilə “Qarabağ”ı qorumaq mümkün olmuşdu. Komandanın yaşamasında bir çoxları ilə yanaşı Cavanşir Novruzovun da əməyi danılmazdır.

“İndi qürurla deyirik ki, komandamız 8 dəfə Azərbaycan çempionu, 6 dəfə ölkə kubokunun sahibi olmuşdur. Avropa Çempionlar Liqasının qrup mərhələsinə vəsiqə qazanmış ilk və tək Azərbaycan klubudur. Hər bir qələbə, xüsusilə mötəbər beynəlxalq yarışlarda qazanılmış qələbə ölkəmizdə milli qüruru, milli ruhu yüksəldir. Buna misal kimi bir xatirəni danışmaq istərdim. 1996-cı ildə Finlandiyada Avropa kuboku uğrunda yarışda yerli XİK komandası ilə oynayırdıq. Həmin səfərə bizimlə birgə Xalq artisti Alim Qasımov da yollanmışdı. Stadion azarkeşlərlə dolu idi. İkinci hissədə meydançaya çıxan zaman Alim müəllim tamaşaçılar arasından ayağa qalxaraq mikrofonsuz zənguləli səslə “Qarabağ şikəstəsi”ni oxumağa başladı. Yerli azarkeşlər bu səsin sehrinə mat qalmışdılar. Bizə isə sanki əlavə güc verildi və həmin oyunda qələbə qazandıq. Bu, mötəbər yarışlarda ilk qələbələrdən biri idi.

30 ilə yaxın müddət ərzində gözləyirdik ki, Ağdam və mənfur düşmənlər tərəfindən zəbt edilmiş digər torpaqlarımız işğaldan nə vaxt azad ediləcək. Və Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyevin parlaq siyasəti və igid oğullarımızın qəhrəmanlığı sayəsində zəfər qazandıq. Allah şəhidlərimizə rəhmət etsin, qazilərimizə cansağlığı versin”.

Ötən il noyabrın 23-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Birinci xanım Mehriban Əliyeva işğaldan azad edilmiş Ağdam şəhərinə səfər etdilər. Dövlət başçısı Ağdamda Azərbaycanın üçrəngli bayrağını qaldırdı. Bu görüntülər hər birimizdə fəxr və böyük sevinc hisslərinə səbəb oldu.

Ağdam məscidinə Məkkədən gətirdiyi “Qurani-Kərim”i bağışlayan Prezident bildirdi: “İndi biz şanlı Qələbəmizi qeyd edirik. Dağılmış Ağdam şəhəri erməni vəhşiliyinin şahididir. Biz Ağdam şəhərini bərpa edəcəyik, bütün kəndləri bərpa edəcəyik. Heç kimdə bu haqda şübhə olmasın. Bu, böyük iş olacaqdır. Əlbəttə ki, böyük zəhmət tələb edəcək. Amma necə ki, biz 44 gün ərzində birlik göstərmişik, əminəm ki, azad edilmiş torpaqlarımızın bərpası işində də birlik, əzmkarlıq göstərəcəyik. Bütün şəhərlərimizi bərpa edəcəyik, daha da gözəl şəhərlər olacaqdır. Şəhərlərimizdə qalan tarixi abidələri bərpa edəcəyik və bir daha gücümüzü göstərəcəyik”.

Artıq məlumdur ki, Ağdam rayonunda “Qarabağ” klubunun ev oyunlarını keçirəcəyi “İmarət” stadionu bərpa ediləcək. Həmçinin rayonda digər zəruri infrastrukturla yanaşı, idman şəhərciyi, sağlamlıq parkı, güllə atıcılığı tiri, şahmat məktəbi, üzgüçülük mərkəzi, 20 voleybol və futbol meydançası istifadəyə veriləcək.

Həyatını idmana - futbola həsr etmiş Cavanşir Novruzov da yenidən qurulacaq Ağdamı görmək, uşaqlıqda futbolun sirlərini öyrəndiyi “İmarət” stadionunun meydançasına bir daha ayaq basmaq arzusundadır: “Tez-tez “İmarət”i xatırlayıram. Oranın özünəməxsus qoxusunu hələ də hiss edirəm. Stadionun ətrafındakı tut və qoz ağacları gözümün önündən çəkilmir. İnşallah, o vaxtlar olduğu kimi, tribunalar yenə də azarkeşlərlə dolu olacaq. Qismət olsa, mən də öz bilik və təcrübəmdən Ağdamda, Qarabağda uşaq və gənclər futbolunun inkişafı üçün istifadə edəcəyəm”.

***Rizvan HİLALOĞLU,***
***“Azərbaycan”***

# Gəncə Dövlət Universitetində məişət zorakılığına həsr olunmuş videokonfrans keçirilmişdir

Gəncə Dövlət Universitetində dövrümüzün aktual problemlərindən olan məişət zorakılığı mövzusunda videokonfrans keçirilmişdir.



Videokonfransı giriş sözü ilə universitetin humanitar məsələlər üzrə prorektoru Gülsüm Fətəliyeva açaraq 27 noyabr 2020-ci il tarixli “Azərbaycan Respublikasında məişət zorakılığı ilə mübarizəyə dair 2020-2023-cü illər üçün Milli Fəaliyyət Planı”nın təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamının əhəmiyyətindən danışmışdır.

Sonra universitetin sosial fənlər kafedrasının müdiri Asim Məmmədov “Məişət zorakılığı dövlət və cəmiyyətin ortaq problemidir”, həmin kafedranın müəllimi Ramin Əliyev “Məişət zorakılığı ilə mübarizə sahəsində normativ hüquqi bazanın beynəlxalq təcrübəyə uyğunlaşdırılması” , fizika kafedrasının baş müəllimi Südabə Məmmədova “Məişət zorakılığından zərər çəkmiş şəxslərin aşkarlanması və müasir standartlara uyğun yardım xidmətlərinin təmin olunması” , rus dili kafedrasının dosenti Kübra Ələkbərova “Məişət zorakılığının qarşısının alınması və onunla mübarizə sahəsində məlumatlandırma” və universitetin tələbəsi Arzu Xəlilova “Gender bərabərliyi” mövzularında məruzələrlə çıxış etmişlər.

Məruzəçilər qeyd etmişlər ki, məişət zorakılığı ilə mübarizə qadın və uşaqların hüquqlarının təmin edilməsini prioritet sayan dövlətlərin bu gün həll etməyə çalışdığı əsas problemlərdən biridir. Qadınlara və uşaqlara qarşı zorakılıq insanlığın ən utancverici insan haqları pozuntusu deməkdir. Qadınlara qarşı zorakılıq cəmiyyətdə qadınlara və kişilərə fərqli yanaşmadan irəli gəlir. Məlum olduğu kimi, 1995-ci ildə Azərbaycan BMT-nin “Qadınlara Qarşı Ayrı-Seçkiliyin Bütün Formalarının Ləğv Edilməsi Haqqında” Konvensiyasına qoşulmuşdur.

Diqqətə çatdırılmışdır ki, Azərbaycanda gender siyasətinin müasir dövrün tələblərinə uyğun həyata keçirilməsinin hüquqi əsası məhz Ümummilli Lider Heydər Əliyevin birbaşa rəhbərliyi altında 1995-ci il noyabrın 12-də qəbul olunmuş müstəqil Azərbaycanın Konstitusiyasında qoyulmuşdur. Ümummilli Lider Heydər Əliyevin qadınlara qarşı həssas münasibətindən və qayğısından danışan məruzəçilər Ulu Öndər tərəfindən 1998-ci ildə imzalanan “Azərbaycan qadınlarının rolunun artırılmasına dair tədbirlər haqqında” sərəncamını da bu qayğının təzahürü kimi dəyərləndirmiş, onun siyasi xəttinin Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirildiyi vurğulanmışlar. Qeyd edilmişdir ki, 10 oktyabr 2006-cı il tarixində qəbul edilmiş “Gender bərabərliyinin təminatları haqqında” Azərbaycan Respublikasının Qanunu da hüquqi, təşkilati və digər mexanizmlər vasitəsilə dövlət kişi və qadınların idarəçilikdə və qərar qəbuletmədə bərabər təmsilçiliyə, bərabər imkanların yaradılmasına, gender bərabərliyinin təmin edilməsinə və ayrı-seçkiliyin bütün formalarının aradan qaldırılmasına təminat verir.

Qeyd edilmişdir ki, 22 iyun 2010-cu ildə “Məişət zorakılığının qarşısının alınması haqqında” Azərbaycan Respublikasının Qanunu da qəbul edilmiş, 27 noyabr 2020-ci ildə isə “Azərbaycan Respublikasında məişət zorakılığı ilə mübarizəyə dair 2020-2023-cü illər üçün Milli Fəaliyyət Planı” təsdiq edilmişdir. Həmin sənədlərə əsasən məişət zorakılığının qurbanı olan şəxslərin sosial və hüquqi müdafiəsi, eləcə də məişət zorakılığının qarşısının alınması istiqamətində tədbirlərin gücləndirilməsi nəzərdə tutulmuşdur.

***Sabir ƏLİYEV,***
***“Azərbaycan”***


# OXUCULARIN NƏZƏRİNƏ!
# “AZƏRBAYCAN”

***qəzetinə 2021-ci il üçün abunə yazılışı kampaniyası davam edir!***

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır.**
**Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

*“Azərmətbuatyayımı” ASC* (012) 440-46-94, (012) 441-19-91
*“Azərpoçt” ASC* (012) 598-49-55, (051) 225-02-13
*“Qaya” firması* (012) 566-77-80, (050) 214-40-53
*“Kaspi” MMC* (012) 432-39-55, (012) 510-82-24
*“Region Press” MMC* (055) 316-79-01, (050) 316-79-01
*“Səma-M” MMC* (012) 594-09-59
*“Ziya” LTD* (012) 497-76-96, (050) 306-77-22
*“Pressinform” MMC* (012) 598-49-52, (070) 340-01-00
*“City press” MMC* (055) 819-09-26

*1 illik*
124,80 (yüz iyirmi dörd manat səksən qəpik) manat

*6 aylıq*
62,40 (altmış iki manat qırx qəpik) manat

*3 aylıq*
31,20 (otuz bir manat iyirmi qəpik) manat

*Hörmətli oxucular!*
*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya (012) 539-59-33 nömrəli telefona zəng vura bilərsiniz.*

**ABUNƏ YAZILMAĞA TƏLƏSİN!**


# Azərbaycanda koronavirusa 1213 yeni yoluxma faktı qeydə alınıb

Azərbaycan Respublikasında koronavirus infeksiyasından 2104 nəfər müalicə olunaraq sağalıb, 1213 yeni yoluxma faktı qeydə alınıb.

Nazirlər Kabineti yanında Operativ Qərargahdan AZƏRTAC-a verilən məlumata görə, COVID-19 üçün götürülən analiz nümunələri müsbət çıxmış 21 nəfər vəfat edib.

Hazırkı dövrədək ölkəmizdə 320 min 322 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib. Onlardan 291 min 564 nəfər müalicə olunaraq sağalıb, 4538 nəfər vəfat edib. Aktiv xəstə sayı 24220 nəfərdir.

Ötən müddət ərzində 3 milyon 253 min 878 test aparılıb. Dünənki test sayı isə 12692-dir.







# Hazırkı dövrədək ölkəmizdə vurulan vaksin dozalarının sayı 1 milyon 500 mini keçib

Mayın 1-də Azərbaycanda yeni koronavirus (COVID-19) infeksiyasına qarşı 16 min 988 doza vaksin vurulub.

Nazirlər Kabineti yanında Operativ Qərargahdan AZƏRTAC-a bildiriblər ki, onlardan birinci mərhələ üzrə vaksinasiyadan keçənlərin sayı 5391, ikinci mərhələ üzrə peyvənd olunanların sayı 11597 nəfər olub.

Hazırkı dövrədək ölkəmizdə vurulan vaksin dozalarının sayı 1 milyon 505 min 206-ya bərabərdir. Birinci mərhələ üzrə vaksin vurduranların sayı 971 min 523, ikinci mərhələ üzrə peyvənd olunanların sayı 533 min 683 nəfərdir.

## D Ü Z Ə L İ Ş

Sumqayıt Şəhər İcra Hakimiyyəti yanında Mənzil Kommunal Təsərrüfatı İstehsalat Birliyi tərəfindən “Azərbaycan” qəzetinin 01 may 2021-ci il tarixli sayında dərc olunmuş tender elanında 13-cü sətir “Tender 1 (bir) LOT üzrə keçiriləcək” kimi oxunmalıdır.

***Tender komissiyası***

## ALLAH RƏHMƏT ELƏSİN!

Azərbaycan Respublikası Nazirlər Kabinetinin rəhbərliyi Azərbaycan Respublikasının gənclər və idman naziri

**AZAD ARİF OĞLU RƏHİMOVUN**

vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

---

İqtisadiyyat Nazirliyinin rəhbərliyi və kollektivi Azərbaycan Respublikasının gənclər və idman naziri

**AZAD RƏHİMOVUN**

vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

---

Baba Rzayev ailəsi ilə birlikdə Azərbaycan Respublikasının gənclər və idman naziri

**AZAD RƏHİMOVUN**

vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

---

Milli Məclisin deputatı Nəsib Məhəməliyev gənclər və idman naziri

**AZAD RƏHİMOVUN**

vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

---

“Azercell Telecom” MMC-nin rəhbərliyi və kollektivi Azərbaycan Respublikasının gənclər və idman naziri

**AZAD ARİF OĞLU RƏHİMOVUN**

vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

---

Yeni Azərbaycan Partiyasının Mərkəzi Aparatı Milli Məclisin deputatı Sabir Rüstəmxanlıya əzizi

**NAZİLƏ XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin rəhbərliyi və kollektivi Azərbaycan Respublikasının gənclər və idman naziri

**AZAD RƏHİMOVUN**

vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Respublikası Ali Məhkəməsinin kollektivi Azərbaycan Respublikasının gənclər və idman naziri

**AZAD RƏHİMOVUN**

vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

---

Azərbaycan Dövlət İqtisad Universitetinin rektoru, professor Ədalət Muradov və universitetin kollektivi Azərbaycan Respublikasının gənclər və idman naziri

**AZAD RƏHİMOVUN**

vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

---

Aydın Əliyev ailə üzvləri ilə birlikdə gənclər və idman naziri

**AZAD RƏHİMOVUN**

vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

---

Azərbaycan Respublikası Energetika Nazirliyinin rəhbərliyi və kollektivi Azərbaycan Respublikasının gənclər və idman naziri

**AZAD ARİF OĞLU RƏHİMOVUN**

vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Respublikasının Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin rəhbərliyi və kollektivi Azərbaycan Respublikasının gənclər və idman naziri

**AZAD RƏHİMOVUN**

vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

---

Gəncə Dövlət Universitetinin rektoru Yusif Yusibov və universitetin kollektivi Niyazi Bayramova əzizi

**AZAD RƏHİMOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Peşəkar Futbol Liqasının prezidenti Ramin Musayev Azərbaycan Respublikasının gənclər və idman naziri, Milli Olimpiya Komitəsinin vitse-prezidenti

**AZAD RƏHİMOVUN**

vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.


**BAŞ REDAKTOR**
**Bəxtiyar SADIQOV**

**Ünvan**



*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə*
*e-mail:*
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

**Telefonlar**

Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 539-72-39,
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-84-41, 539-21-00,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 432-37-68,
Humanitar siyasət şöbəsi - 538-56-60, 539-63-82
İctimai əlaqələr şöbəsi - 539-49-20, 538-31-11,
Fotoillüstrasiya şöbəsi - 538-84-73,
Kompüter mərkəzi - 538-20-87,
Mühasibatlıq - 539-59-33

**Qeydiyyat nömrəsi 1**

**“Azərbaycan” qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, “Azərbaycan” nəşriyyatında çap edilmişdir**

**Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir**

**Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır**

***Gündəlik qəzet***

**Tiraj 5203**
**Sifariş 776**
**Qiymətі 40 qəpik**